Əli Əsğər Rizvani



# ŞƏLƏFİLƏRİN
## BAXIŞINDA AĞIL

313news

**Əli Əsğər Rizvani**

# Sələfilərin baxışında ağıl

Layihə rəhbəri: **313news.net**

Tərcüməçi: **Fərhad Mirzə**

Elmi redaktor: **Bəhruz Camal, İdris Hüseynzadə**

Texniki redaktor: **Tural Ordubadi**

**MÜNDƏRİCAT**


Ön söz ........ 6

Ağılın bələdçi olması ........ 6

Ağlın dəlil olmasında ixtilaf ........ 7

Əqidə məsələlərində ağlın həddi ........ 10

Nəzəri və əməli ağıl ........ 13

Sələfilərin nəzərində ağıldan istifadə etməyin meyarları ........ 18

1. Həqiqətlərin dərk edilməsində ağıl müstəqil deyil. ........ 18

2. Səhih rəvayətin ağıldan irəli keçməsi ........ 18

3. Vəhhabilər və səhabələrin rəvayətlərinin ağıldan irəli keçməsi ........ 19

İbn Teymiyyənin ağıl mövzusunda sözü dolandırması ........ 20

Nəqlin ağıldan qabağa keçməsi ilə bağlı vəhhabilərin dəlilləri ........ 21

Üsul (etiqadi prinsiplər) və füru (əməli göstərişlər) arasında fərq ........ 26

Əbu Hənifə sələfilərin etirazı ilə üz-üzə ........ 28

Quran və təfəkkürə dəvət ........ 34

Quranın təfəkkürə dəvət etməkdə olan üslubları ........ 34

Qurani Kərimin baxışında təfəkkür nümunələri ........ 36

Quranın təfəkkür etməyə dəvət etməsinin məqsədləri ........ 36

Ağlı mədh edən rəvayətlər ........ 38

1. Əhli beytin (əleyhimus-salam) hədisləri ........ 38

2. Əhli sünnə hədisləri ........ 40

Vəhhabilər və onların etiqadi məsələlərdə xəbəri-vahidə etimad etməsi ........ 43

Vəhhabilərin dəlillərinin araşdırılması ........ 43

Əqidə məsələlərində zəif rəvayətlərə etimad etmək caiz deyildir ........ 47

**Bağışlayan və Mehriban Allahın adı ilə**

## Giriş

İslamın düşüncə tarixi tənəzzül və tərəqqiyə məruz qalmış, müxtəlif dəyişiklik və nəticələrlə əhatələnmişdir. Bu çox dəyişkən tarixdə müxtəlif düşüncə və əsaslara söykənən firqə və məzhəblər üzə çıxmışdır. Onların bəzisi unudulmuş, bəzisi isə müxtəlif dəyişikliklə İslam cəmiyyətində öz rolunu oynamışdır. Lakin bu arada qeyd etmək lazımdır ki, tarixin bu keşməkeşində meydana çıxan vəhhabi firqəsi tamam başqa axarda cərəyan edir. Buna görə də vəhhabilik İslam mütəfəkkirləri arasında heç bir güclü əsasa malik olmayan bir firqə kimi tanınır. Bununla belə onlar bəzi müsəlmanlara əsassız və quru ideologiyalarını sırımaqla, özlərini İslam təfəkkür meydanının yeganə sahibləri kimi qəbul etdirmək istəyirlər. Buna görə də, bu firqənin ideologiyasını və müxtəlif düşüncələrini müəyyən etmək üçün, elə bir işdir ki, möhtərəm Ustad Əli Əsğər Rizvani kimi, davamlı səylərlə, bir çox mənbə və qaynaqlardan istifadə etməklə aparılan tədqiqat işləri nəticəsində bu təfəkkürün gizli və aşkar cəhətləri araşdırılmalı və düşüncələri təhlil edilməlidir.

Çəkdiyi zəhmətə görə Ustada öz təşəkkürümüzü bildiririk. Ümid edirik ki, həmin silsilə tədqiqatlar camaatda bu azğın firqə haqqında daha çox agahlıq yaradacaq. Biz alimlərin fikirlərindən faydalanmaqla növbəti çaplarda bu kitabçanın keyfiyyətini daha da yaxşılaşdırmaq istəyirik. ***Allah müvəffəqiyyətlərin vəlisidir!***

***Həcc təhqiqatlar mərkəzi, kəlam və maarif qrupu***

## Ön söz

Allah-taala insana iki bələdçi bəxş etmişdir. Onlardan biri batini bələdçi olan ağıl, digəri isə zahiri bələdçi olan peyğəmbərdir. Hər ikisi insanı kamilliyə çatdırmaqda bir-birini təkmilləşdirir. Zahiri bələdçi olan peyğəmbər insan üçün hədəfləri müəyyənləşdirir. Batini bələdçi olan ağıl isə nur kimidir. İnsan ağıl işığında onun üçün nəzərdə tutulmuş hədəflərə yetişə bilər. Buna görə də biz ağılın hədlərini müəyyən etmək üçün ondan bəhs etməyimizi münasib bildik. Görək, biz ilahi hökmləri əldə etməkdə ağıla nə qədər etimad edə bilirik?!

### Ağılın bələdçi olması

12 imamçı şiələr ağlı şəri hökmlərin əldə edilməsində mötəbər qaynaqlardan biri hesab edir, onu (ağlı) müdaxilə etmək səlahiyyətinə malik olduğu yerlərdə bələdçi hesab edirlər. Ağlın İslamda xüsusi yeri vardır. Belə ki, o, şəri hökmləri əldə etməkdə mühüm olan bir qaynaqdır. Bu amil, İslamın öz əbədiliyini qorumasına və bir mütərəqqi mədəniyyət kimi inkişaf etməsinə səbəb oldu. Beləliklə də İslamın hökmlərinə elə genişlik bəxş etdi ki, bu din bütün zamanlara şamil oldu. Lakin bu o mənada deyil ki, biz ağlı bütün ictimai və fərdi məsləhətlərdə, ibadət və tövqifi hökmlərdə[1] bələdçi, özümüzü isə şəriətdən və Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) ehtiyacsız hesab edək. Bu yalnız ağılın səlahiyyəti çatan yerlərə aiddir.

İmam Kazim (əleyhis-salam) Hişam ibn Həkəmə xitabən buyurur:

يَا هِشامُ! إنَّ لله عَلَي النّاس حُجَّتَيْن: حُجَّةٌ ظَاهِرَةٌ وَحُجَّةٌ بَاطِنَةٌ؛ فَأَمَّا الظَّاهِرَةُ فَالرُّسُلُ وَالأنْبِياءُ وَالأَئِمَّةُ، وَأَمَّا البَاطِنَةُ فَالعُقُولُ

**"Ey Hişam, Allahın insanlar üzərində iki höccəti vardır: Zahiri və batini höccət. Zahiri höccət nəbilər, rəsullar və imamlardır. Batini höccət isə ağıldır".[2]**

Bu və digər hədislərdən belə nəticə çıxır ki, İslam ağlın hər cür azğınlıqdan və heyvani istəklərdən uzaq olması şərtilə müstəqil olaraq verdiyi hökmləri qəti, möhtərəm və əzəmətli hesab edir. Buna görə də fiqh tarixi boyunca şiə alimlərinin şəriət dəlillərini dörd hissəyə böldüklərinin şahidi oluruq. Bu dörd mənbə Quran, sünnə, icma və ağıldan ibarətdir.

İbn İdris Hilli (539-598 h.q.) deyir:

---

[1] Tövqifi hökmlər o hökmlərə deyilir ki, orda ağıl rol oynamır, yalnız nəqli (Quran və sünnə) dəlil vasitəsilə qəbul olunur.

[2] Şeyx Kuleyni, "əl-Kafi", c.1, s.16

انّ الحقّ لا يعدو اربع طرق: امّا كتاب الله سبحانه، أو سنّة رسوله (صلّى الله عليه و آله و سلّم) المتواترة المتفق عليها، أو الاجماع، أو دليل العقل، فاذا فقدت الثلاثة فالمعتمد في المسائل الشرعية عند المحقّقين الباحثين عن مأخذ الشريعة، التمسك بدليل العقل فيه ...

"Haqq dörd yoldan kənara çıxmaz. Bu dörd yol aşağıdakılardan ibarətdir:

1-Allahın kitabı;

2-Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) üzərində ittifaq olunan mütəvatir sünnəsi;

3-icma;

4-ağıl.

Əgər (hər hansısa bir məsələnin hökmünü) ilk üç dəlil ilə ayırd etmək mümkün olmasa, o zaman şəriətin mənbələrini araşdıran mühəqqiqlər ağıl dəlilinə əsaslanırlar..."[3]

**Ağlın dəlil olmasında ixtilaf**

Ağıl o mənbələrdəndir ki, ilahi hökmləri əldə etmək üçün ona müraciət olunur. Buna görə də ağıl mövzusu üsuli-fiqh[4] alimləri tərəfindən araşdırılmışdır. Şiə və əhli-sünnənin üsul alimlərinin ağlın dəlil olması barəsində səsləndirdikləri fikirlər müxtəlifdir. Çünki bəziləri zahiri hökmün və ya əməli vəzifənin səbəbi kimi bir sıra prinsipləri dəlil olaraq ağıl vasitəsilə əldə edirlər. Digərləri isə ağlı Quran və sünnə kimi müstəqil dəlil hesab edərək, bu iki dəlilin müqabilində qoymuş və ağılı şəriətin əməli göstərişlərini əldə etmək üçün qurulan deduksiyanın böyük müqəddiməsi hesab etmişlər. Ğəzzali ağlın dəlil olması mövzusunda deyir:

دلّ العقل علي براءة الذمة عن الواجبات و سقوط الحرج عن الخلق في الحركات و السكنات قبل بعثة الرسل: و تأييدهم بالمعجزات، و انتفاء الاحكام معلوم بدليل العقل قبل ورود السمع و نحن علي استصحاب ذلك إلى ان يرد السمع.

**"Ağıl, peyğəmbərlərin göndərilməsindən və möcüzələrlə dəstəklənmələrindən qabaq vacibatların insanların boyunlarından götürülmüş olmasına, insanlara hərəkət və sükunətlərində günah yazılmamasına dəlalət edir. Nəql (ilahi əmr) gəlməmişdən qabaq şəri hökmlərin mövcud olmaması əqli dəlil ilə məlumdur. Biz əlimizə nəqli dəlil yetişənədək "istishab" qaydasına əməl etməliyik[5]."[6]**

Bu ifadədən belə nəticəyə gəlirik ki, Ğəzzalinin nəzərində ağıl birbaşa əməli vəzifə üçün yox, yalnız bəraət[7] üçün dəlildir. Lakin Mühəqqiq Quminin fikrinə görə ağıl

[3] "Əs-Sərair", c.1, s.46.

[4] Üsuli-fiqh, ilahi hökmləri əldə etmək üçün müəyyən qaydalardan ibarət olan bir elmdir. Müctəhidlər bu elmin vasitəsilə fətvalar çıxara bilirlər. Bunu da qeyd edək ki, bu elmdən xəbəri olmayanlar ilahi fətvalar vermək iqtidarında deyillər.

[5] Yəni, əlimizə bir şeyin vacib olmaması barədə nəqli dəlil (Quran və ya sünnədən bir dəlil) çatmadığı müddətcə həmin şeyin vacib olmamasına hökm etməliyik, həmçinin də əksinə. [Red.]

[6] "Əl-Mustəsfa", c.1, s.127.

[7] Nəqli dəlil olmayan zaman hökmün insanların boynundan götürülməsi qaydasına bəraət deyilir. [Müt.]

birbaşa əməli vəzifənin və şəri hökmün icra olunması üçün dəlildir. O, əqli dəlilin tərifi haqqında deyir:

حكم عقلي يوصل به إلي الحكم الشرعي و ينتقل من العلم بالحكم العقلي إلي العلم بالحكم الشرعي.

**"Əqli hökm (elə bir hökmdür ki) onunla şəri hökmə çatılır. Əqli hökmə olan elmlə şəri hökmə olan elmə keçilir."[8]**

**Ağlın bələdçi olduğu yerlər**

Dediyimiz kimi əgər ağlın hökmü heyvani və nəfsani hisslərin təsiri nəticəsində olmazsa, o zaman bu hökm şəri dəlili sübut edə və nəticədə şəri hökmü əldə etmək üçün mənbə hesab oluna bilər. İndi ağlın hökmünün bələdçi olan yerlərinə işarə edirik:

**1. Mülazimələrdə (iki şeyin bir-birinin mövcudluğunu zəruri hesab edən yerlərdə)**

Ağlın bələdçi olduğu yerlərdən biri də qarşılıqlı mülazimələrdir:

a) İki vacib arasında olan mülazimə. Namazın və onun müqəddiməsinin (dəstəmaz, qüsl və s.) arasında olan vaciblik mülaziməsi kimi. (Belə yerlərdə əgər namaz vacibdirsə, onun müqəddiməsi də vacibdir. Yəni namazın vacib olması onun müqəddiməsinin də vacib olmasını zəruri edir – Müt.)

b) İki haram arasında olan mülazimə. Şərabın və onun müqəddiməsinin (onu istehsal etmək və s.) mülaziməsi kimi. (Belə yerlərdə əgər şərab içmək haramdırsa, onu istehsal etmək də haramdır. Yəni, şərab içməyin haram olması, onu istehsal etməyin haram olmasını da zəruri edir – Müt.)

c) Bir şeyin vacib olması ilə onun ziddinin haram olması arasında olan mülazimə. Məsciddən nəcisin təmizlənməsinin vacib olması və namazın geniş vaxtında o məsciddə namaz qılmağın haram olması kimi. (Belə yerlərdə məscidin təmizlənməsinin vacib olması orda geniş vaxtda namaz qılmağın haram olmasını zəruri edir – Müt.)

d) Əmrə itaət etməklə o əmrə itaət etməyin kifayət etməsi arasında olan mülazimə. (Belə yerlərdə əmrə itaət etməyin özü o əmrin yerinə yetirilməsinin kifayət edici olduğunu zəruri edir – Müt.)

e) İbadətlə onun qadağası arasında olan mülazimə. (Məsələn, əgər namaz bir fəsad yaradacaqsa, o namazı qılmaq haramdır. Əgər dövrün imamı insanı cihada çağırırsa, o da "namaz ən xeyirli əməldir" deyib müstəhəb namazlar qılırsa, bu namaz o insana haramdır. Deməli, qadağan olunmuş namaz onun fəsadını zəruri edir. –Müt.)

---

[8] Müzəffər, "Üsuli-fiqh", c.3, s.108, Mirzə Qummidən nəqlən.

v) Ticarətlə onun haram olması arasında olan mülazimə. Məsələn cümə namazı zamanı ticarətlə məşğul olmaq. (Belə yerlərdə cümə namazı zamanı ticarət etmək o ticarətin haram olmasını zəruriləşdirir.)

q) Cəza və ya mükafatla onun şərtinin mövcudluğu arasında olan mülazimə. Məsələn "əgər Əhməd sizə gəlsə, ona hörmət et!" (Burada Əhmədin sizə gəlməsi ona hörmət etməyinizi zəruri edir.)

Bu qeyd edilənlər ağlın qeyri-müstəqil mülazimələri fəsli kimi adlandırılır. Çünki bunun müqəddimələrindən biri qeyri-əqli və şəridir. Birinci deyilənlər isə ağlın müstəqil mülazimələri adı ilə tanınır.

**2. Səbəblərin araşdırılmasında**

Əgər bir sıra sifət və xüsusiyyətlərə malik bir movzu olsa və ağıl da o xüsusiyyətlərin qəti şəkildə hökmə dəxli olmamasına aid hökm etsə, ağıl o xüsusiyyətləri ləğv edərək ümumi bir hökm çıxarır. Nümunə olaraq bir rəvayəti nəzərinizə çatdırırıq:

Bir çöl ərəbi Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) belə ərz elədi:

هَلَكْتُ يا رَسُولَ اللهِ! فَقال(صلّى الله عليه [و آله] و سلّم) : ما صَنَعْتَ؟ قال: وَقَعْتُ عَلى أَهْلِي فِي نَهارِ رَمَضَانَ. فَقَالَ (صلّى الله عليه و آله و سلّم) إعْتِقْ رَقَبَةً.

**"Ey Allahın Rəsulu, mən həlak oldum! Həzrət (s) soruşdu: Nə etmisən? Kişi cavab verdi: Ramazan ayında, gündüz vaxtı həyat yoldaşımla cinsi əlaqədə olmuşam. Həzrət buyurdu: Bir qul azad et!"**[9]

Bu yerdə biz səbəbləri araşdırıb çöl ərəbi olma xüsusiyyətini ləğv edərək ümumi hökm çıxara bilərik və bunu digərlərinə də şamil edə bilərik. Belə ki, hər kəs Ramazan ayında gündüz vaxtı bu işi etsə, bir qul azad etməlidir. Lakin əgər ağıl o xüsusiyyətlərin hökmə dəxli olmaması barəsində zənn etsə və bu barədə qəti bir fikir irəli sürə bilməsə, bu barədə ümumi hökm çıxarıla bilməz. Həyat yoldaşı xüsusiyyətini aradan götürüb Ramazan ayında zina etməsinin zənni olması səbəbilə ümumi hökm vermək olmaz.

**3. Hüsnü-qübhü əqlidə (ağlın yaxşını yaxşı və pisi də pis kimi dərk etdiyi yerlərdə)**

Əgər ağıl bir əməlin yaxşı və ya pis olmasına hökm versə, bunun vasitəsilə şəriət hökmünü özü üçün kəşf edə bilər. Məsələn, insan bir əməlin bəyan olunmasından öncə insanın o əməli etməməsinə görə cəzalandırılmasının pis olduğunu və ya bəyan olunmasından sonra cəzalanmasının yaxşı olduğunu dərk edir. Eyni zamanda insan şəriətə etiqadı olmasa belə, öz daxilinə müraciət etsə, görər ki, ədalət yaxşı və zülm pis bir əməldir. Bu, şiə və mötəzilə firqəsinin nəzəridir. Lakin əşərilər belə deyir:

[9] "Səhihi-Müslim", "Kitabus-siyam", h.187.

Bir iş zatən yaxşı və ya pis xüsusiyyətlərə malik deyil. Əksinə bir işin yaxşı olması şəriət sahibi tərəfindən vacib, müstəhəb və ya mübah formasında əmr edilərsə, o iş yaxşı hesab olunur. Eyni zamanda bir işin pis olması şəriət sahibi tərəfindən haram və ya məkruh şəklində qadağan edilərsə, o iş pis iş hesab olunur...

Onlar deyirlər:

**"Namaz, oruc və bu kimi işlər ilahi əmr olduğu üçün yaxşı işdir, eyni zamanda, zina, oğurluq və bu kimi işlər Allah tərəfindən qadağan olunduğu üçün pis iş hesab olunur. Əgər belə olmasa, heç bir iş nə yaxşıdır, nə də pis."**[10]

**Əqidə məsələlərində ağlın həddi**

Qurani-Kərim ağıla xüsusi dəyər vermiş və düzgün təfəkkürü ağıl sahiblərinin sifətlərindən hesab etmişdir. Bu o demək deyildir ki, ağıl varsa, daha Quran və sünnəyə ehtiyac yoxdur. Əksinə məqsəd budur ki, ağıl idrak səlahiyyətinə sahib olan mərifət (Allahı və Onun dinini tanıma) səbəblərindən biridir. Çünki (ağlın fövqündə dayanan) bəzi məsələlər vardır ki, ağlın onlara müdaxilə etmək səlahiyyəti yoxdur.

**1.** Allahın zatı barəsində düşünmək heç bir ağıl üçün mümkün deyildir. Elə buna görə də Allah-taala buyurur:

وَ لا يُحِيطُونَ بِهِ عِلْما

**"Onların elmi Allahı əhatə edə bilməz."**[11]

**2.** Allahın həyat, elm və iradəsinin həqiqətinə varmaq ağlın müdaxilə etmək imkanından xaricdir. Bu sifətlər zahirən bir məfhum olmasına baxmayaraq, həqiqətdə isə Allahın zatı hesab olunduqları üçün Allahın Özü kimi dərkedilməzdirlər.

Lakin ağıl ilahi maarifin bəzi məsələlərində xüsusi mövqeyə sahibdir. O cümlədən:

**a) Allah-taalanı tanımağın vacib olması**

Bütün İslam alimləri bu əqidədədirlər ki, Allahı tanımaq vacibdir. Lakin bu tanıma yollarında ixtilaflar mövcuddur. Bəziləri bu yolda ağlı, digərləri isə nəqli (Quran və sünnəni) hakim hesab edir. İlahi maarifi əldə etməkdə ağlı hakim hesab edənlər belə deyir: **"Allahı tanımağın vacib olmasına hökm verən ağıldır. Çünki Allahı tanımağı tərk etmək ehtimal olunan zərərlə nəticələnə bilər və ağıl da hökm edir ki, zərərdən qaçmaq vacibdir. Deməli, Allahı tanımaq da vacibdir."**

**b) Gücün çatmadığı bir şeyin təklif olunmasının qəbahətli olması**

İlahi maarifə ağlın müdaxiləsinin nəticəsi olaraq, ağıl hökm edir ki, insanın gücü çatmadığı işlərin ona təklif olaraq vacib olunması qəbahətdir (Yəni, Allah heç kəsin

---

[10] "Məbahisul-hukm indəl-üsuliyyin", c.1, s.168.

[11] Taha surəsi, 110-cu ayə.

gücü çatmadığı bir əməli insana vacib etməz – Müt). Lakin vəhhabilər bunu düzgün hesab edirlər.

**c) Hökmü bəyan etmədən cəza verməyin qəbahətli olması**

Ağıl deyir: “Allah-taala Öz hökmlərini peyğəmbərlərin vasitəsilə bəyan etməmiş o hökmlərə əməl etməmək ittihamı ilə insanları cəzalandırması qəbahətlidir.” Bu məsələni şəriət də təsdiq edir. Allah-taala buyurur:

وَ ما كُنَّا مُعَذِّبِينَ حَتَّي نَبْعَثَ رَسُولاً

**“Biz (dünyada heç bir millətə, onları oyatmaq üçün) bir peyğəmbər göndərməyincə (köklərini kəsəcək) əzab verməmişik.”[12]**

Lakin vəhhabilər şəriətə istinad etmədən, bu hökmü əqli baxımdan qəbul etmirlər.

**d) Uşaqların axirətdə cazalandırılmasının qəbahətli olması**

Ağlın verdiyi hökmlərdən biri də uşaqların axirət aləmində cəhənnəm əzabına məruz qalmalarının qəbahətli olmasıdır. Lakin vəhhabilər bu işi Allaha ünvanlayıb, onu düzgün hesab edirlər. Deyirlər ki, əgər Allah-taala uşağı da cəhənnəmə atarsa, ədalətli iş görmüşdür və bu iş ədalətin özüdür.

**Qurani-Kərimin baxışında ağlın yaxşını yaxşı və pisi də pis kimi hesab etməsi məsələsi**

Qurani-Kərimdən əldə etdiyimiz nəticə budur ki, ağıl işlərin yaxşı və ya pis olmasını - şəriət sahibi bu barədə xüsusi göstəriş verməsə də - dərk etməyə qadirdir. Məsələn, ağıl yaxşılıq etməyin, yaxşılığa yaxşılıqla cavab verməyin, əhdə vəfa etməyin və s. yaxşı olduğunu dərk edir. Eyni zamanda ağıl zatən zülmün, yaxşılığa pisliklə cavab verməyin, əhdi sındırmağın pis olduğunu da dərk edir. Bu məsələ Quran ayələrindən də məlum olur:

**1.** Allah-taala buyurur:

وَ إِذا فَعَلُوا فاحِشَةً قالُوا وَجَدْنا عَلَيْها آباءَنا وَاللهُ أَمَرَنا بِها قُلْ إِنَّ اللهَ لا يَأْمُرُ بِالْفَحْشاءِ أَ تَقُولُونَ عَلَي اللهِ ما لا تَعْلَمُونَ

**“Onlar pis bir iş gördükləri zaman “atalarımızı belə gördük və bizə bunu Allah əmr etmişdir” deyərlər. De: “Allah əsla pis işə əmr etməz. Bilmədiyiniz bir şeyi Allaha nisbət verirsiniz?”[13]**

Ayədən bu nəticə çıxır ki, insan şəriət gəlməmişdən əvvəl bu barədə şəri hökm olmasa da, pis işləri tanıyır və onun pis, qəbahətli olmasını dərk edirdi.

**2.** Başqa bir ayədə isə belə buyurur:

---

[12] İsra surəsi, 15-ci ayə.

[13] Əraf surəsi, 28-ci ayə.

أَفَنَجْعَلُ الْمُسْلِمِينَ كَالْمُجْرِمِينَ ما لَكُمْ كَيْفَ تَحْكُمُونَ

**"Belə isə, məgər Biz təslim olanları (axirət mükafatı baxımından) günahkarlarla bərabər tutarıqmı?! Sizə nə olub? Necə hökm edirsiniz?!"[14]**

**3.** Həmçinin yenə buyurur:

أَمْ نَجْعَلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ كَالْمُفْسِدِينَ فِي الأَرْضِ أَمْ نَجْعَلُ الْمُتَّقِينَ كَالْفُجَّارِ

**"Məgər Biz iman gətirib yaxşı işlər görənləri (mükafatlandırma məqamında) yer üzündə fəsad törədənlərlə bir tutacağıq?! Yoxsa təqvalıları günahkarlarla bir tutacağıq?!"[15]**

Bu ayələr insan ağlının bərabərsizliyə şahid və agah olduğuna dəlalət edir. Nəticədə də insanın ağlı işlərin pis və ya yaxşı olduğunu dərk etməyə qadirdir.

**Hüsnü-qübhü əqlinin faydaları**

Bu qaydanın bir çox faydaları var. Biz onlardan bəzisinə işarə edirik:

**1.** Hər bir insana əqli baxımdan Allahı tanımaq vacibdir

**2.** Allahın işlərini hər cür mənasız, bihudə işlərdən və onu naqis sifətlərlə vəsf etməkdən pak bilmək vacibdir.

**3.** Allahın işləri bihudəlikdən uzaq olduğu üçün bəndələrin boynunda şəri vəzifələrin olması vacibdir.

**4.** İnsanların kamilliyə və hidayətə çatması üçün peyğəmbərlərin göndərilməsi vacibdir.

**5.** Ehtimal olunan zərəri uzaqlaşdırmaq vacib olduğu üçün peyğəmbərlik iddiası edən şəxsin gətirdiyi dəlillər haqqında fikirləşmək vacibdir.

**6.** Əxlaqi dəyərlər və onun davam etdirilməsi bütün tayfa və millətlərdə vacib bir məsələdir. Çünki əxlaqi dəyərlər bütün insanların fitrəti ilə müvafiqdir. Məsələn, yaxşı işlər görənlərə hörmət etmək.

**7.** Şəri vəzifəni bəyan etmədən onu insanın boynuna qoymaq qəbahətli işdir.

**8.** Gücü çatmadığı işin insanın boynuna qoyulması qəbahətlidir.

**9.** Allahın lütf göstərməsi vacibdir (yəni Allahın hikməti tələb edir ki, insanları hidayət etmək üçün bütün mümkün olan vasitələri insanların ixtiyarına versin. Peyğəmbərlər, səmavi kitablar və s. vasitələr bu qəbildəndir. Buna "lütf qaydası" deyilir Müt).

**10.** Allahın işlərinin hədəfli olması vacibdir.

**11.** Ağıl hökm edir ki, Allahın ədalətli olması vacibdir.

---

[14] Qələm surəsi, 35-36-cı ayələr.

[15] Sad surəi, 28-ci ayə.

Lakin biz iki məsələni xatırlatmağı zəruri hesab edirik:

**a)** Bir şeyin yaxşı və ya pis olması haqqında ağlın hökm verməsi Allaha bir təklifin vacib olması mənasında deyildir. Çünki Allah hər cür mükəlləflikdən üstündür. Lakin bizim Allah barəsində vacib və ya lazım ifadələrini işlətməyimiz bir məsələnin vacib olmasının bizim üçün kəşf olunması mənasındadır. Daha bu mənada deyil ki, kimsə bu işi Allaha vacib edibdir. Bunun mənası odur ki, ağıl qəti olaraq bəzi işləri kəşf edir. Belə ki, Allah-təala hikmət sahibidir və hikmətsiz iş görməz. Allah-taala hikmətlə uyğun olan işləri Özünə vacib hesab etmişdir. Daha kimsənin ağalığı və diktəsi ilə bu işlər Ona vacib olmamışdır.

**b)** Ağlın əqidə məsələlərində xüsusi yeri olması, onun şəriət məsələlərində də eyni səviyyəyə malik olması demək deyil. Çünki Allah-taala ibadət məsələlərini, hökmlərin fayda və zərərlərini təyin etməkdə insanlar üçün yol qoymamışdır. Bu məsələlədə ağlı meyar kimi qəbul edərək ümumi yerlərdə ona müraciət etmək olmaz. Lakin bəzi yerlərdə - üsul elmində deyildiyi kimi - ağlın köməyindən istifadə etmək olar.

**Nəzəri və əməli ağıl**

Ağıl "iqal əl-bəir" qismindəndir. "İqal əl-bəir" odur ki, dəvənin qabaq ayağını dizindən əyib elə bağlayırlar ki, dəvənin ayağı havada qalır və bir yerdə dayanır.

Ağıl da elə bir vasitədir ki, onun vasitəsilə işlərin həqiqətini tanımaq olur. İnsanın tanıdığı həqiqətlər iki növdür:

**1.** Bir sıra həqiqətlər var ki, onların gerçəkləşməsi insan ixtiyarından xaricdir. Təbii və fövqəltəbii hadisələr buna misal ola bilər.

**2.** Bir sıra həqiqətlər də var ki, onların gerçəkləşməsi insanın ixtiyarı çərçivəsindədir. İnsanın ixtiyari işlərinin hamısı buna bir misaldır.

Həqiqətin bu iki növünü nəzərə alıb ağlı da iki qismə bölmək olar: Nəzəri və əməli ağıl.

Birinci növün dərk olunması birbaşa insanın əməli ilə bağlı deyil, lakin ikinci növün dərk olunması isə birbaşa insanın əməlinə bağlıdır.

Buna əsasən nəzəri ağıl elə həqiqətləri dərk edir ki, onu bilmək layiqli bir işdir. Əməli ağıl elə şeyləri dərk edir ki, ona əməl etmək layiqli bir məsələdir. Yaxşının yaxşı və pisin pis olduğunu dərk edən ağıl nəzəri deyil, əməli ağıldır. Əşərilər ağılın bələdçi olmasını nəzəri dərketmənin çərçivəsində qəbul edirlər. Lakin əməli ağlın dərketmə xüsusiyyətini inkar edirlər. Buna görə də onlar yalnız Allahın zatını, sifətlərini və tovhidi isbat etmək üçün əqli dəlillərdən istifadə edirlər.

**Hüsnü-qübhü əqli qanununun izahı**

Hüsnü-qübhü əqli qanununun iki faydası var:

1. Bilərəkdən və ixtiyari olaraq edilən əməllər zatən yaxşı və ya pis ola bilər. Bu ümumi bir məsələdir. Buna əsasən də şəriətin hökmləri də bir sıra həqiqi, öz-özlüyündə məsləhət və fəsadlara tabedir. Bu məsləhət və fəsadlar da həqiqətdə şəriət hökmlərinin fəlsəfəsini təşkil edir. Başqa sözlə desək, şəriət hökmləri zatən və həqiqi olaraq bu məsləhət və fəsadları kəşf edir. Əşərilər də bu prinsipi ümumilikdə inkar edirlər.

2. Bəşəri ağıl müstəqil formada bəzi işlərin zatən məsləhət və zərərlərini ayırd edə bilir. Lakin bütün işlərin yaxşı və ya pis olmasını tanımaq ağlın qüdrətindən xaricdir. Buna görə də bəşərin daim vəhyə və nübüvvətə ehtiyacı var.

**Birinci faydanın izahı**

**İnsanın gördüyü işlər iki ünvanla əlaqədardır**

**a)** İlkin ünvanlar

Bu ünvanlar işləri təkvini (yaradılış, zati) baxımdan bir-birindən ayırır. Məsələn, yemək, içmək və s.

Bu ünvanda olan işlər yaxşılıq və pislik sifətləri ilə vəsf olunmurlar. Bunlar sadəcə təkvini yaxşılığa sahibdirlər.

**b)** İkinci dərəcəli ünvanlar

Bu növ ünvanlar ilk öncə birinci ünvanın mövcudluğuna bağlıdır. Gərək o ünvanlar olsun ki, bunlar da gerçəkləşsin. Bu növ ünvanlar yaxşı və ya pis sifətlərlə vəsf olunurlar. Məsələn ədalət, zülm, yalan, doğru və s.

Bu ünvanlara fellərin yaxşı və ya pis sifətlərlə sifətlənməsinin mənşəyi etibarı ilə yaxşı və ya pis də deyirlər. Bir işin yaxşı və ya pis olması ilkin ünvanlara yox, ikinci dərəcəli ünvanlara bağlıdır.

**Hüsnü-qübhü əqli qaydasını qəbul edənlərin dəlilləri**

**1.** Əqli aksiom. Deyilən hökm əməli ağlın aksiom hökmlərindəndir. Çünki hər insan özlüyündə ədalətin yaxşı və zülmün pis olduğunu bilir.

**2.** Əgər bir işin yaxşı və ya pis olması yalnız şəriətin ayırd etməsilə olarsa, bu nə əqli baxımdan, nə də şəri baxımdan sabit olmur.

**Dəlilin izahı**

**a)** Əgər biz bəzi şeylərin pis, bəzilərinin isə yaxşı olduğunu bilməsək, əqli baxımdan biz yalanın pis olduğuna hökm verə bilmərik. Beləcə Allahın da yalan danışması caiz olacaq. Bunun nəticəsində də əgər Quran bir şeyin yaxşı və ya pis olmasından xəbər versə də, biz ona yəqinlik əldə edə bilməyəcəyik.

**b)** Bu fərzlə şəriətin hökmləri də sabit olmur.

(Bu iki müqəddimədən aldığımız) nəticədə ağlın yaxşını yaxşı, pisi də pis kimi dərk etməsi isbatlanmış olur.

**3.** Şəri baxımdan da bir şeyin yaxşı və ya pis olmasının inkarı səmavi dinlərdən imtina edilməsinə gətirib çıxarır. Buna əsasən belə çıxır ki, Allahın möcüzəni bir yalançıya bəxş etməsi qəbahətli deyil. Bunun da nəticəsində peyğəmbərləri tanımaq üçün qapı bağlanır.

**Hüsnü-qübhü əqli qaydasını inkar edənlərin dəlilləri**

**1-ci dəlil:** Əgər hüsnü-qübhü əqli qaydası aksiomdursa, onda gərək heç kəs bu məsələdə ixtilaf etməsin. Tamın öz hissəsindən böyük olmasını bilmək kimi. Halbuki belə deyil.

**Cavab:** Aksiomlar bir neçə növdür. Çünki məntiqi deduksiyada yəqinlik gətirən müqəddimələr 6 qismdir.

1. İlkin prinsiplər
2. Müşahidə nəticəsində ələ gələn prinsiplər
3. Təcrübə nəticəsində ələ gələn prinsiplər
4. Güman nəticəsində ələ gələn prinsiplər
5. Çox işlənmə nəticəsində ələ gələn prinsiplər
6. Fitri prinsiplər

Bunların arasında da fərqlər mövcuddur. Çünki onların bəzisi daha tez, bəzisi daha gec yəqinlik gətirir. Bu fərq bunların aksiom olması ilə heç bir ziddiyyət təşkil etmir.

**2-ci dəlil:** Faydalı yalan qəbahətli deyil. Əgər yalan qəbahətli hesab olunsaydı, Peyğəmbəri (sallallahu əleyhi və alihi və səlləm) zalımın əlindən xilas etmək üçün deyilən yalan da qəbahətli olardı. Halbuki belə deyildir.

**Cavab:** Burda iki qəbih iş var:

1. Peyğəmbəri (sallallahu əleyhi və alihi və səlləm) həlakətlə üz-üzə qoymaq
2. Yalan

Burda insan ikincisini seçir. Çünki bunda Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) nicatı olduğu üçün birincisindən qəbahəti daha azdır.

**Nəticə:**

Yalan həmişə pisdir. Lakin ziddiyyət zamanı, yəni iki pis işi görmək məcburiyyətində qalan zaman qəbahəti ən az olanı yerinə yetirmək ağlın verdiyi hökmdür.

**3-cü dəlil:** Bir adam yalan vədə verdiyi surətdə doğru danışmaq və vədəyə əməl etmək yaxşı bir iş sayıldığına görə (onun) yalanın yaxşı olması lazım gələcək. Əgər qəbahətli olarsa, onda vədəyə əməl etmək və doğru danışmaq qəbahətli sayılacaq.

**Cavab:** Burada iki məsələ var:

1. Vədəyə əməl etmək yaxşıdır.

2. Yalanın tərkibində gerçəkləşməsi cəhətindən yaxşı vədəyə əməl etmək qəbahətlidir.

Biz mütləq şəkildə və qeyd-şərtsiz olaraq vədəyə vəfa etməyi yaxşı hesab etmirik. Onun (vədənin) əlaqəli olduğu iş yaxşı olduğu surətdə yaxşı hesab olunur. Əgər bir nəfər bir adamı öldürəcəyinə vədə verərsə, əlbəttə ki, onun bu vədəyə əməl etməsi pis bir işdir.

**4-cü dəlil:** Hüsnü-qübhü əqli qaydası Allahın öhdəsinə hər hansı bir təklifin qoyulması fərzini yaradır. Bu əsasla insan Allaha hər hansı bir şeyi vacib (ədalət, hikmət kimi) və ya haram (zülm, bihudəlik kimi) edir. Halbuki Allaha heç bir şey nə vacibdir, nə də haram.

**Cavab:** Əvvəla, bu dəlili gətirənlər iki məsələni bir-birilə qarışdırmışlar.

**1.** Ağlın yaxşı və ya pisi dərk etməsi qabiliyyətinin olması məsələsini.

**2.** Ağlın hər hansı bir işin yaxşı və ya pis olmasını dərk etməsinin şəri hökmləri dərk etməsi arasında olan mülaziməni

Bizim dediyimiz bəhs birinci qismə aiddir.

İkincisi, dəlil gətirən Allaha bir şeyin vacib olması ilə Allahın kamal sifətlərindən və hikmətindən kəşf olunan işləri bir-birilə qarışdırmışdır. Yəni biz öz ağlımızla Allahın hikmətli və rəhimli olması səbəbindən filan işi Özünə vacib etdiyini kəşf edirik. Daha biz hər hansı bir hökmü Allahın öhdəsinə qoyub, o işi Ona vacib hesab etmirik.

**5-cü dəlil:** Hüsnü qübhü əqli qaydası cəbr (məcburluq) nəzəriyyəsi ilə uyğun gəlmir. İnsanın öz işlərində məcbur olmasına inanan əşərilər deyir: Bu nəzəriyyə Hüsnü qübhü əqli qaydası ilə uyğun gəlmir. Quşçi deyir:

لو كان الحسن والقبح بالعقل لما كان شيء من أفعال العباد حسناً ولا قبيحاً عقلاً... وجه اللزوم أن العبد مجبور في أفعاله ولا شيء من أفعال المجبور بحسن ولا قبح عقلاً.

**"Əgər yaxşı və pis ağıl ilə (ayırd edilə bilən) olsaydı, o zaman bəndələrin əməllərindən heç bir şey əqlən yaxşı və ya pis olmazdı.. Çünki bəndə öz işlərində**

**məcburdur. Məcbur olan kəsin işlərində əqlən yaxşı və ya pis olan heç bir şey yoxdur".**[16]

**Cavab:** Biz öz yerində sübut etdik ki, insan öz əməlində məcbur deyil. Həmin məsələ insanın məcbur olmamasına dəlalət edir. Çünki onun əməlləri yaxşı və ya pis sifətlərlə vəsf oluna bilir.

**6-cı dəlil:** Fəxri Razi deyir:

**Gücün çatmadığı işin əmr olunması ədliyyələrin (12 imamçı şiələr və mötəzilələrin) nəzərində qəbahətdir. Lakin şəriət sahibi gücün yetmədiyi işi əmr etmişdir. Çünki Allah-taala Əbu Ləhəbə iman gətirmək əmrini vermişdir. İman isə Allahı təsdiq etməkdir. Allah isə Quranda Əbu Ləhəbin iman gətirməməsini xəbər vermişdir. Həqiqətdə Allah Əbu Ləhəbə iman gətirməyi əmr etsə də, o, iman gətirməmişdir. Bu təklif isə iki zidd olan şeyin bir yerdə cəm olmasıdır. Əgər bu növ təkliflər qəbih olsaydı, Allah belə bir təklifi həyata keçirməzdi. Halbuki Allah bu işi etmişdir. Deməli, hüsnü qübhü əqli qaydası qeyri-mümkündür.**[17]

**Cavab:** Əbu Ləhəb iman gətirməyə (mükəlləf) vəzifəli idi və bu iş yenə də onun ixtiyarında idi. Lakin onun iman gətirməməsi vəhy vasitəsilə xəbər verilib. Nəticədə Quranda xəbər verildiyi kimi o, iman gətirməməyə (mükəlləf) vəzifəli deyildi, əksinə iman gətirməyə vəzifəli idi.

**7-ci dəlil:** Allah-taala buyurur:

وَ ما كُنَّا مُعَذِّبِينَ حَتَّي نَبْعَثَ رَسُولاً

**"Biz (dünyada heç bir millətə, onları oyatmaq üçün) bir peyğəmbər göndərməyincə (köklərini kəsəcək) əzab verməmişik."**[18]

Əgər hüsnü-qübhü əqli qaydası sabit olsa, onda Allah vacibi tərk və günahı icra edənə - istər bunlar şəriətdə gəlsin, istərsə də gəlməsin - əzab verərdi. Halbuki yuxarıdakı ayə bunu inkar edir.

**Cavab:** Ağıl müstəqil mövzularda (hüccətdir) bələdçidir. Məsələn nemət verənə şükr etməyin vacibliyi müstəqil mövzulardandır. Bundan başqa yerlərdə yalnız şəriətə müraciət olunmalıdır. Yuxarıdakı ayə ağlın müstəqil şəkildə dərk etdiyi mövzulardan deyil, şəriət sahibinin vasitəsilə bəyan olunan hökmlərdəndir. Biz ibadət məsələləri kimi yerlərdə şəriətə müraciət olunmasını qəbul edirik və gərək şəriətin göstərişini gözləyək.

---

[16] "Şərhut-təcrid", s.442.

[17] "əl-Məhsul": c.2, səh.244-ə və daha öncəki səhifələrə müraciət edin.

[18] İsra surəsi, 15-ci ayə.

**Sələfilərin nəzərində ağıldan istifadə etməyin meyarları**

Vəhhabilərin ağıl və onun şəriətə, əqidə məsələlərinə müdaxilə etməsi barəsində bir sıra nəzərləri mövcuddur. Biz onlara işarə edirik:

1. **Həqiqətlərin dərk edilməsində ağıl müstəqil deyil.**

Sələfilər ağlın müstəqil məsələləri və həqiqətləri dərk etməsini qəbul etmirlər. Ağılın qəti surətdə dərk etdiyi məsələləri Quran və sünnəyə daxil etməyi qəbul etmirlər. Doktor Qovsi deyir:

انّهم ـ (رحمهم الله) ـ يحترمون العقل و يقدرونه قدره و يعرفون له قيمته و فضله؛ لاعتقادهم بانّ فهم نصوص الكتاب و السنة يحتاج إلي قلب يتدبّر و عقل يفكّر يغوص صاحبه في معانيها فيستنبط منها الحكم الشرعي الصحيح، الاّ انّهم يرفضون الغلو في تقدير العقل و تمجيده...

**"Onlar Quran və sünnənin mətnlərinin dərki üçün düşünən qəlbə, təfəkkür edən və Quran və sünnənin mənalarına varıb onlardan səhih şəriət hökmünü istinbat edən bir ağıla ehtiyac duyulduğuna etiqad etdikləri üçün ağıla ehtiram edir, onun qədrini bilir, onun dəyər və fəzilətini etiraf edirlər. Lakin onlar ağlın dəyəri və qiyməti barəsində həddi aşmağı qəbul etmirlər..."[19]**

**Araşdırma**

Əvvəla, biz bu iddianı əməldə görmürük. Çünki biz tarix boyu sələfiləri ayə və rəvayətlərin zahirinə əsasən hökm verdiklərini müşahidə etmişik. Onlar heç vaxt ayə və rəvayətləri anlamaq üçün ağıldan istifadə etməyiblər. Əksinə onlar hər rəvayətin zahirinə əməl etmiş, hökmü zahirə əsasən əldə etmişlər. Ağıl barəsində ifadə etdikləri mənalar ağlın əsaslarından istifadə etmək mənasında deyil, sadəcə düşünmək mənasındadır.

İkincisi, ayə və rəvayətləri anlamaq üçün qəti əqli qaydalardan istifadə etmək heç vaxt ağlı şişirtmək mənasında deyildir. Əksinə hər zahiri mənanı Allaha nisbət verib ardınca hansı fəsadları gətirəcəyini düşünməmək zahirə itaət etməyi şişirtmək hesab olunur.

2. **Səhih rəvayətin ağıldan irəli keçməsi**

Əhli hədis və vəhhabilər əqidə sahəsində sənədi səhih olan bir rəvayət əldə etdikdə, bu rəvayətin məzmunu ağılla müxalifətçilik etsə belə, onun məzmununa əqidə bəsləyirlər. Çünki onlar belə deyir: "Ağıl gərək şəriətə tabe olsun, ağıl şəriətin müqabilində dayana bilməz." Lakin biz deyirik: "Şəriət sahibi ağıllıların rəisidir və heç vaxt ağıla müxalif olan söz deməz." Hətta səhih sənədlərə əsasən nəql olunmuş hədislərin saxtalaşdırılmasında böyük rola malik olan müxtəlif amillər mövcuddur. Onların bəzisi yəhudi və nəsrani əqidələrindən İslam mədəniyyətinə daxil olmuşdur.

[19] "Əl-mənhəcus-sələfi", s.387

Buna görə də biz gərək səhih hədisi qeyri-səhih hədisdən ayırmaq üçün meyarlar müəyyən edək. Bu mühüm mövzuda o meyarlardan biri də düzgün ağıla müraciət etməkdir.

3. **Vəhhabilər və səhabələrin rəvayətlərinin ağıldan irəli keçməsi**

Doktor Seyyid Əbdüləziz Sili yazır:

يتمثّل الشرع في كتاب الله تعالي و سنة رسول الله(صلّى الله عليه و آله و سلّم) ؛ حيث انّها شارحة له و الاقتداء بالصحابة حيث انّ الوحي نزل بين أظهُرهم، و رسول الله(صلّى الله عليه و آله و سلّم) بينهم، فهم اعلم بالكتاب و السنة من غيرهم. يقول ابوسعيد الدارمي: فالمعقول ما وافق هديهم و المجهول ما خالفهم و لا سبيل إلي معرفة هديهم و طريقتهم الاّ بالآثار الواردة.

**"Şəriət Allah-taalanın kitabında, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) sünnəsində və səhabələrə iqtida edib onların ardınca getməkdə təcəssüm tapır. Sünnədə ona görə təcəssüm tapır ki, sünnə Quranın şərhçisidir. Səhabələrə iqtida etməkdə ona görə təcəssüm tapır ki, vəhy onların arasında nazil olmuşdur, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onların arasında yaşamışdır və onlar Quran və sünnəyə digərlərindən daha çox agahdırlar. Əbu Səid Darəmi demişdir: "Məqul (ağıla uyğun olan şey) səhabələrin yoluna müvafiq olan, məchul isə onların yoluna müxalif olan şeydir. Onların getdikləri yolu tanımaq isə yalnız və yalnız bizə gəlib çatan əsərlər (rəvayətlər) yolu ilə mümkündür."** [20]

**Cavab:** Əvvəla, bəzi işlərin hüsnü-qübhü əqliyə əsaslandığını sübut etdik.

İkincisi, İslam maarifi üç qismdir. Onlardan bəzisi yalnız ağılla isbat olunur. Məsələn Allahın varlığının isbatı, peyğəmbərliyin və məadın zəruri olması yalnız ağılla sübut olunur. Bəziləri isə həm əql, həm də nəql (Quran və sünnə) ilə sübut olunur. Məsələn Allahın bəzi sifətləri bu iki yolla sübut olunur. Bəziləri isə yalnız nəqllə isbatlanır. Məsələn məadın cüzi məsələləri, behişt və cəhənnəm yalnız nəqllə isbat olunur.

Üçüncüsü, Allah-taala bir çox ayələrdə insanları düşünməyə dəvət edir və düşünməkdən qaçanları isə məzəmmət etmişdir. Allah-taala buyurur:

إِنَّ شَرَّ الدَّوَابِّ عِنْدَ اللهِ الصُّمُّ الْبُكْمُ الَّذِينَ لا يَعْقِلُونَ

**"Həqiqətən, Allah yanında, tərpənən canlıların ən pisi düşünməyən (haqqı eşitməkdə) kar və (haqqı deməkdə) lal (olan) insanlardır."**[21]

Başqa yerdə isə Allah buyurur:

وَ يَجْعَلُ الرِّجْسَ عَلَي الَّذِينَ لا يَعْقِلُونَ

[20] Sili, "Əl-əqidətus-sələfiyyə", s.102 ; "Ər-rədd ələl-cəhmiyyə", s.309.

[21] Ənfal surəsi, 22-ci ayə.

**“Allah murdarlığı (azğınlığı bütün dəlil-sübutlar təqdim edildikdən sonra) düşünməyən kəslərin üzərinə qoyur.”[22]**

**İbn Teymiyyənin ağıl mövzusunda sözü dolandırması**

İbn Teymiyyə deyir:

علم بصريح العقل لا يتصور ان يعارضه الشرع البتة، بل المنقول الصحيح لا يعارضه معقول صريح قطّ. و قد تأملت ذلك في عامة ما تنازع الناس فيه، فوجدت ما خالف النصوص الصحيحة الصريحة شبهات فاسدة يعلم بالعقل بطلانها، بل يعلم بالعقل ثبوت نقيضها الموافق للشرع... و وجدت ما يعلم بصريح العقل لم يخالفه سمع قطّ، بل السمع الّذي يقال انّه يخالفه امّا حديث موضوع او دلالة ضعيفة، فلا يصلح ان يكون دليلا لو تجرّد عن معارضة العقل الصريح، فكيف اذا خالفه صريح المعقول؟ و نحن نعلم انّ الرسل لا يخبرون بمحالات العقول بل بمحارات العقول، فلا يخبرون بما يعلم العقل انتفاءه، بل يخبرون بما يعجز العقل عن معرفته.

**“Şəriətin ağılla açıq-aşkar bilinən bir şey ilə ziddiyyət təşkil etməsi qətiyyən düşünülə bilməz. Eləcə də, ağılla açıq-aşkar bilinən bir şey əsla səhih nəql (hədis) ilə ziddiyyət təşkil etməz. Mən camaatın ixtilaf etdiyi məsələlərin əksəriyyətinə diqqət yetirdim. Gördüm ki, səhih və aşkar nəsslərlə (hədislərlə) ziddiyyət təşkil edən şeylər batillikləri ağılla bilinən bir neçə əsassız şübhədən ibarətdir. Hətta ağıl onların şəriətə müvafiq olan əkslərinin doğruluğuna hökm edir... Həmçinin də, ağılla açıq-aşkar bilinən bir şey ilə heç bir hədisin ziddiyyət təşkil etmədiyini, əksinə, onunla ziddiyyət təşkil etdiyi deyilən hədislərin ya uydurma, ya da zəif dəlalətli olduğunu gördüm. Hətta belə hədislərin nəinki ağılın açıq-aşkar hökmü onlarla ziddiyyət təşkil etdiyi təqdirdə, hətta ağıl onlarla ziddiyyət təşkil etmədikdə belə dəlil sayıla bilmədiyini gördüm.**

**Peyğəmbərlər əqli baxımdan qeyri-mümkün olan şeylər deyil, ağılın dərk etməkdə aciz qaldığı şeylər deyirlər. Onlar ağlın batil olduğunu bildiyi şeylər deyil, ağlın dərk etməkdə aciz qaldığı şeylər deyirlər.[23]”[24]**

İbn Teymiyyənin bu sözündə az da olsa söz oyunu vardır. Lakin onun bu ifadəsində düşünülməsi lazım olan iki məsələ də mövcuddur.

1. Şəriətdən rütbə baxımından üstün olan bəzi əqidələr ağılla sabit olmalıdır. Sonra növbə şəriətin nəzərinə yetişməlidir. Məsələn, Allah-taalanın zatının, ədalətinin, sadiq (doğru danışan) olmasının isbatı yalnız ağlın vasitəsilədir. Ondan sonra peyğəmbərlik

[22] Yunus surəsi, 100-cü ayə.

[23] Yəni, dində ağıla zidd bir şey yoxdur, lakin ağılın dərk etmədiyi şeylər var. [Red.]

[24] “Dər`u-təarudil-əql vən-nəql”, c.1, s.147.

və Quran sabit olur. Əgər biz bu ağılla sabit olmalı əqidələri Quranla sübut etmək istəsək, dövr[25] meydana gələcək. Bu da batildir.

2. Burada söz məsumun sünnəsindən yox, xəbərin ravisindən gedir. Hədis düzəldənlər müxtəlif məqsədlərlə, hətta sənədi səhih olan rəvayətlər də düzəldiblər. Buna görə də biz düzgün hədisləri düzgün olmayan hədislərdən ayırmaq üçün meyarlar əldə etməliyik. O meyarlardan biri də bu rəvayətlərin sağlam ağılla uyğun olub-olmamasıdır.

**Nəqlin ağıldan qabağa keçməsi ilə bağlı vəhhabilərin dəlilləri**

Vəhhabilər bununla bağlı bir neçə dəlil gətirmişlər:

**1-ci dəlil:** Doktor Qovsi yazır:

انّ التنزيل جاء بردّ الناس عند التنازع إلي الكتاب و السنة كما قال تعالي: «فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَي اللهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللهِ وَالْيَوْمِ الآخِرِ ذلِکَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً» و هذا يوجب تقديم السمع...

**“Quran insanlara ixtilaf və mübahisə zamanı Qurana və sünnəyə müraciət etməyi göstəriş vermişdir. Allah-taala buyurmuşdur: “*Beləliklə, əgər bir şey barəsində mübahisəniz olsa, Allaha və axirət gününə imanınız varsa, onu Allaha və Onun peyğəmbərinə həvalə edin. Bu (sizin üçün) daha xeyirli və nəticə baxımından daha gözəldir.*”[26] Bu ayə nəqlin ağıldan qabağa keçirilməsinin vacibliyini çatdırır…”[27]**

**Cavab:**

1. Yuxarıdakı ayə Allaha və Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) etiqaddan sonrakı məsələlərlə bağlı olan mübahisələrə şamildir. Əgər belə olmasa, yəni Allaha və Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) etiqadla bağlı Qurana və sünnəyə müraciət etmək dövr meydana gətirir. Dövr də batildir.[28]

2. Quran və sünnəyə müraciət edəndən sonra bu nəticəyə gəlirik ki, bu iki mənbə bəzi yerlərdə ağıla müraciət etməyimizi göstəriş verir. Biz buna öz yerində işarə edəcəyik.

3. Allah-taala bu ayənin əvvəlində buyurur:

---

[25] Dövr – bir şeyin digər şeylə, digər şeyin də elə birinci şeylə sübut olunmasına deyilir. Bu cür sübut etmə qaydası batildir. Məsələn, Allah mövcuddur, çünki Quran deyir ki, Allah mövcuddur. Quran da haqdır, çünki onu Allah göndərib. Burada Allahın mövcudluğu Quranla sübut olunmağa səy edilsə də, Allahı tanımayan Quranı heç qəbul etməyəcək. Quranın haqq olması dəlili isə Allah göndərdiyi üçün sübut olunmağa səy edilsə də, Allahı inkar edən heç vaxt bu dəlili qəbul etməyəcək.

[26] Nisa surəsi, 59-cu ayə.

[27] “Əl-Mənhəcus-sələfi”, s.384

[28] Dövr haqqında yuxarıdakı səhifələrdə izah olunub.

**“Ey iman gətirənlər, Allaha itaət edin, Onun peyğəmbərinə və öz əmr sahiblərinizə tabe olun.”**[29]

Allah və Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) müraciət olunmalı ixtilaflı məsələlər etiqadla deyil, əməllə bağlı olan məsələlərdir.

**2-ci dəlil:** O, yenə yazır:

انّ العقل يصدق الشرع في كل ما اخبر به، بينما الشرع لم يصدق العقل في كل ما ذهب اليه...

**“Ağıl şəriətin bütün xəbərlərini təsdiq edir, lakin şəriət ağlın bütün fikirlərini təsdiq etmir...”**[30]

**Cavab:**

1. Ağıl şəriət vasitəsilə yetişən bütün məsələləri ümumi şəkildə dərk edir, lakin xırdalıqlarına qədər dərk edib, təsdiq edə bilməz.

2. Heç vaxt şəriət ağlın qəti şəkildə verdiyi hökmlə müxalif ola bilməz. Çünki şəriət sahibi olan Allah, aqillərin rəisidir. Bunu da demək lazımdır ki, ağlın müdaxilə etməyə haqqı olmayan yerlərdə şəriət sahibi onun hökmünü təsdiq etmir.

**3-cü dəlil:** O, yenə deyir:

انّه يلزم من تقديم العقل علي النقل القول باستقلال العقل بنفسه و اعتبار ارسال الله سبحانه الرسل و انزاله الكتب لغواً لا فائدة فيه و لا طائل من ورائه.

**“Ağılın nəqldən önə keçirilməsi ağılın (şəri hökmləri dərk etməkdə) müstəqil gücə malik olduğu, peyğəmbərlərin göndərilməsinin və səmavi kitabların nazil edilməsinin faydasız və bihudə iş olduğu mənasına gəlir”.** [31]

**Cavab:**

1. Biz ağlın hər yerdə nəqldən önə keçməsinə etiqad bəsləmirik. Biz o yerlərdə ağlı nəqldən önə çəkirik ki, ağıl həmin yerləri dərk etmək qüdrətinə malikdir. Buna görə də biz təəbbüdi yerlərdə[32] ağlı şəriətdən önə çəkmirik.

2. **Bizim ağılı önə çəkməyimiz o mənada deyil ki, şəriəti batil hesab edək.** Əksinə məqsədimiz budur ki, biz ağlın müdaxilə edə biləcəyi yerlərdə şəriəti ağıl vasitəsilə tanıyıb, dərk edirik.

**4-cü dəlil:** Doktor Qovsi həmçinin yazır:

انّ تقديم الرأي و الهوي علي النقل سنة ابليس لعنه الله... الّذي اعرض عن امر الله له بالسجود لآدم و قابله بالرأي الفاسد و كان اوّل من قاس برأيه...

---

[29] Nisa surəsi, 59-cu ayə.

[30] “Əl-Mənhəcus-sələfi”, s.385; “Dər`ut-təarud”, c.1, s.138.

[31] “Əl-Mənhəcus-sələfi”, s.385-386.

[32] “Təəbbüdi yerlər”: yəni, insanın vəzifəsinin “təəbbüd” olduğu yerlər. “Təəbbüd” şəriət hökmlərini sırf şəriətdə gəldiyi üçün qəbul etməkdir; burada həmin hökmü qəbul etmək və ya ona əməl etmək üçün ağılın həmin hökmü dərk etməsi vacib deyil. Müt.

**“Şəxsi rəyi və istəkləri nəqldən önə çəkmək Allahın Adəmə səcdə etmək əmrindən üz döndərən, öz fəsad gətirən rəyi ilə etiraz edən və ilk dəfə öz rəyi ilə müqayisə aparan İblisin sünnəsidir, Allah ona lənət etsin…”** [33]

1. Ağlın şəriətdən önə keçməsi qəti surətdə ağıla tabe olunan xüsusi məqamlardadır. Belə ki, bu ağlın vasitəsilə Allahın vücud və sifətlərinin isbatı gerçəkləşir. Burada şəxsi rəy və nəfsi istəklər nəticəsində meydana gələn nəticələr nəzərdə tutulmur. Elə bu səbəbdən də Qovsinin bu ifadəsi Əbu Hənifənin rəyinə və güman əsasında olan əqli nəticələrə aiddir.

2. Ağlın qəti şəkildə dərk etdiyi yerlərə tabe olmaq nəfsin istəklərinə tabe olmaq demək deyildir.

**5-ci dəlil:** O, yenə də deyir:

انّ الردّ إلي الأدلة الشرعية يؤدي إلي ائتلاف الخلق و اجتماعهم و انقيادهم لأمر واحد... امّا الردّ إلي العقل فيحيل الخلق إلي شيء لا سبيل إلي ثبوته و معرفته و اتفاق الناس عليه...

**“Şəri dəlillərə üz tutmaq insanların birliklərinə, bir yerə cəm olmalarına və bir əmrə tabe olmalarına gətirib çıxarır… Ağıla üz tutmaq isə insanları sübut edilməsi, (doğruluğunun) bilinməsi və üzərində ittifaq edilməsi mümkün olmayan şeylərə sürükləyir.”**

**Cavab:**

1. Şəri dəlillərin zahirindən çıxan nəticələr müxtəlifdir. Buna görə də xalqı şəriətə həvalə etmək ixtilafa sürükləməkdən kənar deyil.

2. İnsanın fitri və qəti ağlı bir çox işlərdə həqiqətə çatır və bütün insanlar bu növ ağıldan faydalanırlar. Buna görə də insanların belə bir ağlın hökmünə müraciət etmələri camaatı vəhdətə yetişdirir.

**6-cı dəlil:** Əmin Sadiq Əmin deyir:

قد اكمل الله دينه علي يدي نبيه(صلّى الله عليه و آله و سلّم) ولم يحوجه هو و لا أمته من بعده إلي عقل و لا إلي نقل و لا إلي رأي سوي ما جاء به، فقال سبحانه و تعالي: «الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلامَ دِيناً» و أنكر علي من لم يكتف بالوحي المبين و لجأ إلي شبهات العقول و ترهاتها فقال: «أَ وَلَمْ يَكْفِهِمْ أَنَّا أَنْزَلْنا عَلَيْکَ الْكِتابَ يُتْلي عَلَيْهِمْ إِنَّ فِي ذلِکَ لَرَحْمَةً وَذِكْري لِقَوْمٍ يُؤْمِنُونَ». فما جاء به رسول الله(صلّى الله عليه و آله و سلّم) من امور الدين كامل كاف لا يحتاج إلي مزيد تقذف به عقول ناقصة و لا آراء واهمة، كما انّه ليس فيه نقصان و لا تقصير؛ لانّه لا يجوز ان يخلو كتاب الله و سنة رسوله من مهمات الدين، فما خلي عنهما فليس من مهام الدين بل ذلك زيادة في الدين محرمة...

**“Allah-taala Öz dinini Peyğəmbərinin (sallallahu əleyhi [və alihi] və səlləm) vasitəsilə kamil etmişdir. Nə onu, nə də ondan sonra onun ümmətini əlavə bir şeyə; ağıla, nəqlə və ya rəyə möhtac etməmişdir. Allah-taala buyurmuşdur: “*Bu gün dininizi sizin üçün kamilləşdirdim, sizə Öz nemətimi tamamladım və (möhkəm***

[33] “Əl-Mənhəcus-sələfi”, s.386.

***və sabit) bir din kimi sizin üçün İslamı qəbul etdim*”.[34] Həmçinin Allah-taala ilahi vəhylə kifayətlənməyib ağılların qondardığı şübhələrə və uydurmalara üz tutan kəslər barəsində buyurmuşdur: “*Məgər daim oxunmaqda olan bu kitabı sənə nazil etməyimiz onlara kifayət etmədimi? Həqiqətən, bu kitabda iman gətirən tayfa üçün rəhmət və öyüd-nəsihət vardır!*”[35] Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) gətirdiyi din kamil və kifayət edicidir; onun naqis ağılların ortaya çıxardığı əlavələrə ehtiyacı yoxdur. Habelə, dində naqislik yoxdur. Çünki Quranda və Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) sünnəsində dinin mühüm məsələləri qeyd olunub. O şey ki, Quranda və sünnədə qeyd olunmayıb, dinin mühüm məsələlərindən deyil, əksinə, dinə əlavə olunmuş haram məsələlərdir...[36]**

**Cavab:**

Allah-taala insan üçün bir-birini kamilləşdirən, insanın daxilində və xarici aləmdə hidayətedici peyğəmbərlər göndərmişdir. Əgər insan bunların hər birindən öz yerində istifadə etməyi bacarsa, bunlar  insanı kamil şəkildə hiadyət edə və məqsədə çatdıra bilər. Daxili hidayətedici qüvvə sağlam ağıl və fitrətdir. Ağıl hidayət yolunun çırağı kimidir. İnsana həyat bəxş edən ilahi reseptdən və ağıl çırağından bəhrələnməklə məqsədə çatmaq olar. Bəli, dinin kamil olması insana aid olan bütün ilahi inayətlərdən ibarətdir. O, inayətlərdən biri də ağıl və onun dərk etdikləridir.

Bundan əlavə, Qurani Kərim insanlara düşünməyi və mətləbləri anlamaq üçün ağıldan istifadə etməyi əmr edir, ağıldan istifadə etməyənləri isə ən pis dörd ayaqlılardan hesab edir. Belə ki, Allah-taala belə buyurur:

إِنَّ شَرَّ الدَّوَابِّ عِنْدَ اللهِ الصُّمُّ الْبُكْمُ الَّذِينَ لا يَعْقِلُونَ

**“Həqiqətən Allah yanında, tərpənən canlıların ən pisi düşünməyən (haqqı eşitməkdə) kar və (haqqı deməkdə) lal (olan) insanlardır.”[37]**

Başqa yerdə isə buyurur:

وَ يَجْعَلُ الرِّجْسَ عَلَي الَّذِينَ لا يَعْقِلُونَ

**“Allah murdarlığı (azğınlığı bütün dəlil-sübutlar təqdim edildikdən sonra) düşünməyən kəslərin üzərinə qoyur.”[38]**

İmam Sadiq (əleyhis-salam) bir hədisdə buyurur:

---

[34] Maidə surəsi, 3-cü ayə.

[35] Ənkəbut surəsi, 51-ci ayə.

[36] “Məvqiful-mədrəsətil-əqliyyə minəs-sünnətin-nəbəviyyə”, c.1, s.66.

[37] Ənfal surəsi, 22-ci ayə.

[38] Yunus surəsi, 100-cü ayə.

...فبالعقل عرف العباد خالقهم، وأنهم مخلوقون، وأنه المدبر لهم، وأنهم المدبرون، وأنه الباقي وهم الفانون

**"...İnsanlar ağıl vasitəsilə öz Yaradanlarını tanımış, ağıl vasitəsilə özlərinin məxluq olduqlarını anlamışlar. Onlar ağıl vasitəsilə Allahın Müdəbbir (tədbir tökən, işləri idarə edən), özlərinin müdəbbər (tədbirləri tökülən, işləri idarə edilən), Allahın əbədi, özlərinin isə fani olduqlarını bilmişlər..."** [39]

Qazi Əbdülcabbar Mötəzili dəlillər barəsində yazır:

أولها: دلالة العقل, لأن به يميز بين الحسن والقبيح , ولأن به يعرف أن الكتاب حجة , وكذلك السنة والإجماع.

**"Birinci dəlil ağıldır. Çünki onun vasitəsilə pis və yaxşını ayırırlar. Həmçinin onun vasitəsilə Quranın, sünnənin və icmanın hüccət olması bilinir."**[40]

Mötəzilə məzhəbinin böyüklərindən olan Əbu Əli Cübayi deyir:

**"Quranda tövhid və ədalətlə bağlı olan bütün təlimlər ağılın qəti şəkildə bildiyi şeyləri dəstəkləyir..."**[41]

**7-ci dəlil:** İbn Qəyyim deyir:

و قد اقسم الله سبحانه بنفسه علي نفي الايمان عن هؤلاء الذين يقدمون العقل علي ما جاء به الرسول؛ لانّه لا يثبت لأحد ايمان حتي يحكّم رسوله في جميع أموره و لا يبقي في نفسه حرج لحكمه و يسلّم لذلك تسليماً كاملا فلا يعارضه بعقل و لا رأي؛ لقوله تعالي: "فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّي يُحَكِّمُوكَ فِيما شَجَرَ بَيْنَهُمْ ثُمَّ لا يَجِدُوا فِي أَنْفُسِهِمْ حَرَجاً مِمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيماً".

**"Allah-taala ağılı Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) göstərişlərindən önə keçirən bu şəxslərin imana sahib olmadıqları barədə Özünə and içmişdir. Çünki öz peyğəmbərini özünün bütün işlərində hakim etməyincə, onun verdiyi hökm barəsində qəlbində heç bir narahatlıq duymayınca və ona – heç bir şəxsi fikir və rəy ilə etiraz etmədən – tam şəkildə təslim olmayınca bir şəxs üçün iman sabit olmaz (ona mömin deyilməz). Allah-taala buyurur: "*Amma belə deyildir (onların imanları yoxdur). Sənin Rəbbinə and olsun ki, onlar aralarındakı ixtilaflarda səni hakim etməyincə, sonra isə sənin verdiyin hökmə görə özlərində heç bir sıxıntı və narahatlıq duymayıb tamamilə təslim olmayınca iman gətirməzlər*".**[42]

**Cavab:**

İbn Qəyyimin dəlil olaraq gətirdiyi yuxarıdakı ayə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) etdiyi qəzavətlərlə və çıxardığı hökmlərlə əlaqədardır. Buna heç kəsin

---

[39] Şeyx Kuleyni, "əl-Kafi", c.1, s.29.

[40] "Fadlul-itizal və təbəqatul-mutəzilə", s.139.

[41] "Əl-muhit bit-təklif", c.4, s.174.

[42] Nisa surəsi, 65-ci ayə.

müdaxilə etmək, yenisilə əvəzləmək haqqı yoxdur. Bu etiqadi məsələlərin əksinədir. Belə ki, etiqadi məsələlərdə ağıl müstəqil surətdə nəzər sahibi ola bilər. Xüsusilə sərih və qəti ağıl bəzi etiqadi məsələlərin təməlidir.

**8-ci dəlil:** İbn Teymiyyə deyir:

والصحابة كيف كانوا يتلقون الوحي من رسول الله (صلّى الله عليه و آله و سلّم)؟ و هل كانوا يعارضونه بعقولهم و آرائهم أم كانوا ينقادون له و يستسلمون لأحكامه و يصدقون بأخباره؟ و هل كانوا يدفعون من النصوص ما رفضته عقولهم؟ و يقدمون العقل عليها؟ فانّ العقل لا يجب ان يتقدم بين يدي الشرع، فانّه من التقدم بين يدي الله و رسوله...

**"Səhabələr Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) vəhyi necə qəbul edirdilər? Görəsən onlar öz ağılları və şəxsi rəyləri ilə Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) etiraz edirdilər, yoxsa ona itaət edərək onun hökmlərinə təslim olur, onun gətirdiyi xəbərləri təsdiq edirdilər? Görəsən onlar ağıllarının qəbul etmədiyi hədisləri rədd edirdilər? Ağılı bu hədislərdən önə keçirirdilər? Ağıl şəriətdən önə keçirilməməlidir, çünki bu iş Allah və Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) önə keçmək sayılır..."**[43]

**Cavab:**

1. Səhabələr heç vaxt füruiddində (dinin əməli göstərişlərində), Allah və Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) qəzavət və hökmlərində Allahın hökmlərini öz ağılları ilə müxalif hesab etməyiblər. Ümumilikdə onlar belə göstərişlərin qarşısında sırf təslim olmuşlar. Lakin Qurani Kərim insanları bəzi əqidə prinsipləri haqqında ağıl yolu ilə düşünərək dəlil gətirməyə dəvət edir.

2. Deyildiyi kimi söhbət ağlın sünnə ilə ziddiyyət təşkil etməsindən getmir. Əslində söhbət ağlın sünnəni nəql edənin dediyi ilə ziddiyyətindən gedir. Bu ziddiyyət xüsusilə səhih hədisin anlaşılmaz və saxta olmasında rol oynayan amillərin mövcud olması ilə aksiom kimi nəzərə çarpır.

### Üsul (etiqadi prinsiplər) və füru (əməli göstərişlər) arasında fərq

Belə nəzərə çarpır ki, üsuliddinlə füruiddin, xüsusilə ibadət məsələləri arasında gərək fərq qoyulsun. Bəşər ağlının müdaxilə edə bilməyəcəyi, ağlın meyar ola bilməyəcəyi yeganə məsələ füruiddin və ibadət məsələsidir. Çünki ibadətlərin həqiqi məsləhət və onların tərk olunmasının həqiqi fəsadlarına agah olmaq çox çətin bir məsələdir. Buna görə də onlar haqqında nəssə tabe olmaq lazımdır. Etiqadi məsələlərlə bağlı olan üsuliddində isə sağlam ağlın müdaxiləsi üçün yol vardır. Xüsusilə bəzi əqidə prinsipləri, o cümlədən Allahın vücudunun, Onun bəzi sifətlərinin, xüsusən də sidq

[43] "Əl-İtisam", c.2, s.331.

(doğru danışan) sifətinin isbatı yalnız ağlın vasitəsilə isbat olunur. Çünki sidq sifətinin nəql vasitəsilə isbat olunması dövr[44] meydana gətirir. Bu da batil hesab olunan işdir. İbn Qəyyim Cövziyyə ibadət və qanunlar barəsində bu mətləbə işarə edərək yazır:

فجاءهم بخير الدنيا و الآخرة برمته، و لم يحوجهم الله إلى احد سواه، فكيف يظنّ انّ شريعته الكاملة الّتي ما طرق العالم شريعة أكمل منها ناقصة تحتاج إلي سياسة خارجة عنها تكملها، أو إلى قياس أو حقيقة او معقول خارج عنها، و من ظنّ ذلك فهو كمن ظنّ انّ بالناس حاجة إلى رسول آخر بعده.

**"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) camaat üçün bütün dünya və axirət xeyrini gətirmişdir. Allah-taala camaatı ondan başqasına möhtac etməmişdir. Elə isə necə düşünülə bilər ki, onun şəriəti – hansı ki, dünyaya ondan daha kamil bir şəriət gəlməmişdir – naqisdir, onu kamil edəcək kənar şeylərə ehtiyacı var? Yaxud, ondan kənarda olan hansısa qiyasa, həqiqətə və ya ağıla ehtiyacı var? Kim belə gümanda olsa, həmin şəxs Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) sonra camaatın digər bir peyğəmbərə ehtiyacı olduğunu düşünən kəs kimidir."[45]**

**Ağlın kafi olmaması barəsində hamının eyni fikirdə olması**

Hamının nəzəri budur ki, ağıl təklikdə İslam maarifini ələ gətirməkdə kifayət etməz, onun mütləq şəriətə ehtiyacı vardır. Əgər vəhhabilər bunu demək istəyirlərsə, bəli bunu hamı qəbul edir. İbn Teymiyyə deyir:

و ما كان العقل وحده كافياً في الهداية و الإرشاد و الاّ لما ارسل الله الرسل

**"Ağıl hidayət və doğru yol göstərməkdə təkbaşına kifayət etmir. Əgər kifayət etsəydi, Allah-taala peyğəmbərləri göndərməzdi."[46]**

Lakin nəzərə çarpan budur ki, çox vaxt vəhhabilər, xüsusilə müasirlər ağlın bütün etiqadi və şəri məsələlərə müdaxiləsini inkar edirlər.

**Ağılın idrakının məhdudiyyətləri**

Ayətullah Cavadi Amuli deyir:

**"Ağlın şəriətin işığı və dinin həqiqi hökmlərini kəşf etməsinə baxmayaraq, ağıl özü etiraf edir ki, bir çox məhdudiyyətlərə malikdir və dinin bəzi sahələrinə daxil ola bilmir. Lakin bəzi sahələr isə sırf onun sahəsi hesab olunur. Ağıl bilir ki, Allahın zatını dərk etmək sahəsi onun üçün qadağan olunmuş sahədir. Eyni**

---

[44] "Allah sadiqdir, çünki Allahın Özü buyurur ki, mən sadiqəm. Allahın buyurduqları sidqdir, çünki Allah sadiqdir." Belə bir istidlal qəbul olunmaz bir istidlaldır.

[45] "İlamul-muvəqiin", c.4, s.276.

[46] "Muvafəqətu-səhihil-mənqul lisərihl-məqul", c.1, s.21.

**zamanda Allahın onun zatı hesab edilən bəzi sifətlərini də dərk etmə sahəsi ağıl üçün qadağandır...**

**Əlbəttə ki, bəşər bəzi dini maarifi dərk etmək üçün məfhumların köməyindən istifadə edir və Allahdan söhbət aça bilir. Buna da diqqət etmək lazımdır ki, Allah məfhumunu dərk etmək Allahın zatını dərk etmək və sifətlərinə varmaq demək deyildir. Çünki bütün məfhumlar məxluqdurlar..."**[47]

**Əbu Hənifə sələfilərin etirazı ilə üz-üzə**

Belə nəzərə çarpır ki, İbn Teymiyyənin və digər sələfilərin etirazına tuş gələn Əbu Hənifə və hənəfi alimləridir. Çünki onlar şəri hökmlərin ələ gətirilməsində ağıla meyl etməyi daha çox genişləndirmiş və şəri nəsslərə az diqqət etmişlər. Vəhhabilər də öz növbələrində iddialarını inkişaf etdirərək, ağıla tətil veriblər. Çünki hər ifratın müqabilində təfrit dayanır.

Əbu Hənifə şəriət hökmlərinin həqiqi səbəblərini ələ gətirmək üçün ağıl yolundan istifadə edən birinci şəxsdir. O, bu yolu nəsslərin düzgün olması üçün miqyas olaraq təyin etməyə çalışmışdır. Hər hansı bir hökm bu miqyasla müvafiq olsaydı, o, bu hökmün Allahın hökmü olduğunu barədə fətva verərdi. Lakin ağılla müvafiq olmayan hökmləri isə qəbul etməzdi. Əbu Nəim İsfahani öz sənədilə Əmr ibn Cəminin belə dediyini nəql edir:

دخلت أنا وأبو حنيفة على جعفر بن محمد قال لابن أبي ليلى: من هذا معك؟ قال: هذا رجل له بصر ونفاذ في أمر الدين، قال: لعله يقيس أمر الدين برأيه؟.. ، حَدَّثَنِي أَبِي ، عَنْ جَدِّي ، أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ ، قَالَ " : أَوَّلُ مَنْ قَاسَ أَمْرَ الدِّينِ بِرَأْيِهِ إِبْلِيسُ ، قَالَ اللَّهُ تَعَالَى لَهُ : اسْجُدْ لآدَمَ ، فَقَالَ : أَنَا خَيْرٌ مِنْهُ خَلَقْتَنِي مِنْ نَارٍ وَخَلَقْتَهُ مِنْ طِينٍ ، فَمَنْ قَاسَ الدِّينَ بِرَأْيِهِ قَرَنَهُ اللَّهُ تَعَالَى يَوْمَ الْقِيَامَةِ بِإِبْلِيسَ ، لأَنَّهُ اتَّبَعَهُ بِالْقِيَاسِ.

"**Mən, İbn Əbu Leyla və Əbu Hənifə Cəfər ibn Məhəmmədin (İmam Sadiqin) (əleyhis-salam) yanına daxil olduq. Həzrət (əleyhis-salam) İbn Əbu Leylaya buyurdu: Bu səninlə gələn adam kimdir? O dedi: Ərz etdim ki, o, dində nüfuz və bəsirət sahibidir. Həzrət (əleyhis-salam) buyurdu: Sanki o, dini məsələləri öz şəxsi rəyilə qiyas edir?... Atam babamdan Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu mənə nəql etmişdir: Dini məsələləri öz rəyilə ilk qiyas edən İblis olmuşdur. Allah-taala ona buyurdu: Adəmə səcdə et! İblis cavab verdi: "Mən ondan daha üstünəm, məni oddan, onu isə torpaqdan yaratmısan". Hər kəs dini**

[47] "Mənziləte-əql", s.56-57.

**öz rəyilə qiyas etsə, qiyamət günü Allah-taala onu İblislə məşhur edəcək. Çünki o, İblisə qiyas etməkdə tabe olmuşdur.”[48]**

**Xaçpərəstlik və etiqadi məsələlərdə ağıla olan etinasızlıq**

Vəhhabilər ağıla diqqətsizliyi xaçpərəstlərin ağıla olan diqqətsizliyi kimidir. Eyni zamanda bizim etiqadımız budur ki, Həzrət Məsihin (əleyhis-salam) dini səmavi dinlərdəndir. Lakin biz xaçpərəstlərin əqidə məsələlərində ağlı nəzərə almadığının və təkcə qəlbə ilham olunması ilə kifayətləndiklərinin şahidi oluruq. Buna görə də tövhid iddiası etsələr də, Təslisə (Ata, oğul və Müqəddəs Ruh) etiqad bəsləyirlər. Bu elə bir məsələdir ki, ağıl burda ziddiyyətlərin baş verdiyinə və bütün bunların batil olduğuna hökm verir. Biz buna görə onlara irad tutmaq istəyəndə, onlar belə cavab verirlər: Bu məsələ elə əqidə məsələsidir ki, onun həqiqətini ağılla dərk etmək mümkün deyildir. Sadəcə ona iman gətirmək vacibdir. Burada ağılla din və ya, başqa bir ifadə ilə desək elmlə din arasında fasilə yaranır. Halbuki Allah-taala bu iki şeyin hər birinin lazımlı olduğunu təkid edərək buyurmuşdur:

وَ قالَ الَّذِينَ أُوتُوا الْعِلْمَ وَالْإِيمانَ لَقَدْ لَبِثْتُمْ فِي كِتابِ اللهِ إِلي يَوْمِ الْبَعْثِ

**“Elm və iman verilmiş kəslər (peyğəmbərlər, övliyalar və mələklər) isə deyərlər: “Siz, şübhəsiz, Allahın kitabına (Lövhi-Məhfuz və Qur’ani-Məcidə) əsasən (o aləmdə) dirilmə gününə qədər qaldınız”.” [49]**

Bəli ağıl və təfəkkürə dəvət etmək Allah-taalanı tanımağa gedən digər yolları, o cümlədən qəlbə ilham olunmanı lazımsız hesab etmək mənasında deyildir. Allah-taala buyurur:

يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللهَ يَجْعَلْ لَكُمْ فُرْقاناً

**“Ey iman gətirənlər, əgər Allahdan qorxsanız, O, sizə (haqla batili bir-birindən) ayırd edən bir qüvvə verər.”[50]**

Başqa bir yerdə yenə buyurur:

يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَآمِنُوا بِرَسُولِهِ يُؤْتِكُمْ كِفْلَيْنِ مِنْ رَحْمَتِهِ وَيَجْعَلْ لَكُمْ نُوراً تَمْشُونَ بِهِ وَيَغْفِرْ لَكُمْ وَاللهُ غَفُورٌ رَحِيمٌ

**“Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, sizə Öz mərhəmətindən iki pay (bir pay ona iman gətirməyə görə, bir pay isə keçmiş peyğəmbərlərə iman gətirdiyiniz üçün) əta etsin, bunun vasitəsi ilə yol**

---

[48] “Hilyətul-əvliya”, c.3, s.197.

[49] Rum surəsi, 56-cı ayə.

[50] Ənfal surəsi, 29-cu ayə.

**(dünyada ictimai həyat yolunu, məhşərdə isə Cənnət yolunu) getməyiniz üçün bir nur versin və sizi bağışlasın. Allah bağışlayan və mehribandır.**[51]

**Vəhhabilər və istidlalın yalnız Quran və sünnə ilə məhdudlaşması**

Vəhhabilərin metodlarından biri də istidlalı yalnız Quran və sünnə ilə məhdudlaşdırmaq, etiqadi məsələlərdə əqli dəlilləri rədd etməkdir. İbn Qəyyim Cövziyyə deyir:

انّ طريقة القرآن في الاستدلال ملائمة للعقل و الفطرة و الوجدان

**"Quranın istidlaldakı üslubu ağıla, fitrətə və vicdana münasibdir."**[52]

Doktor Sili deyir:

و يري السلف انّ في طريقة القرآن الكريم إقحام المعاندين و إلزام و إرشاد المترددين، و قد اختاروا منهج القرآن في الاستدلال دون سواه من المناهج و الطرق الأخري...

**"Sələflər belə hesab edirlər ki, Quran inadkarları susdurmaq, şəkkdə olanları doğru yola yönləndirmək yolu tutmuşdur. Sələflər istidlalda digər yolları və üslubları deyil, məhz Quranın üslubunu tutmuşlar."**[53]

İbn Teymiyyə deyir:

انّ العقل مع خبره(صلّى الله عليه و آله و سلّم) كالعامي المقلد مع الامام المجتهد بل هو دون ذلك بكثير...

**"Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) xəbərinin müqabilində ağılın (məsəli) müctəhid imamın müqabilindəki savadsız müqəllid(in məsəli) kimidir. Hətta, bundan xeyli aşağıdır..."**[54]

O, yenə deyir:

قد تدبّرت عامة ما يذكر المتفلسفة و المتكلمة و الدلائل العقلية، فوجدت دلائل الكتاب و السنة تأتي بخلاصته الصافية عن الكدر و تأتي بأشياء لم يهتدوا لها و تحذف ما وقع منهم من الشبهات و الأباطيل مع كثرتها و اضطرابها.

**"Mən filosofların və kəlam alimlərinin dedikləri sözlərin əksəriyyəti üzərində və (onların qeyd etdikləri) əqli dəlillər üzərində diqqətlə düşündüm. Bu zaman Quran və sünnənin onların sözlərinin hər cür qaranlıqdan (nöqsandan) uzaq olan xülasəsini təqdim etdiyini gördüm. Quran və sünnənin filosof və kəlamçıların heç vaxt ələ gətirə bilmədikləri şeyləri təqdim etdiyini, onlardan sadir olan şübhə və batil sözləri – çoxluqlarına və qarşıqlıqlarına rəğmən – silib aradan apardığını gördüm."**[55]

O, yenə də deyir:

---

[51] Hədid surəsi, 28-ci ayə.
[52] "Miftahu-daris-səadə", c.1, s.225.
[53] "Əl-əqidətus-sələfiyyə", s.127.
[54] "Dəru-təarudil-əql vən-nəql", c.1, s.138-139.
[55] "Məcmuul-fətava", c.19, s.232-233.

انّ ما عند أنظار اهل الكلام و الفلسفة من الدلائل العقلية علي المطالب الإلهية، فقد جاء القرآن الكريم بما فيها من الحقّ و ما هو ابلغ و اكمل منها علي احسن وجه مع تنزهه عن الأغاليط الكثيرة الموجودة عند هؤلاء، فانّ خطأهم فيها كثير جداً و لعلّ ضلالهم اكثر من هداهم و جهلهم اكثر من علمهم.

**"Kəlamçıların və filosofların ilahi mətləblər barəsində sahib olduqları əqli dəlillərə gəlincə, (bilmək lazımdır ki) Qurani Kərim onların sahib olduqları dəlillərdən daha yüksək və daha kamil olan haqq dəlillər gətirmişdir. Quranın gətirdiyi dəlillər ən gözəl üslubdadır və bu şəxslərdə mövcud olan çoxlu xəta və səhvlərdən uzaqdır. Onların bu mövzudakı səhvləri olduqca çoxdur. Bəlkə də, onları azğınlıqları hidayətlərindən, cəhalətləri elmlərindən daha çoxdur."** [56]

İbn Qəyyim Cövziyyə deyir:

إذا تعارض النقل و هذه العقول اخذ بالنقل الصحيح و رمي بهذه العقول تحت الأقدام و حطت حيث حطّها الله و اصحابها.

**"Əgər nəqllə ağıl bir-birilə ziddiyyət təşkil edərsə, səhih olan nəql götürülər (qəbul edilər), ağıllar isə ayaqlar altına atılıb öz əshabı ilə birlikdə tapdanar, necə ki, Allah onları tapdamışdır."**[57]

Doktor Qovsi deyir:

يقوم المنهج السلفي علي قواعد اساسية و يعتمد علي اصول واضحة افترق بها عمّا سواه من مناهج الفرق و الطوائف و المذاهب الأخري... منها الاستدلال بالآيات القرآنية و الاحاديث النبوية... و هذه من اهمّ القواعد الّتي يقوم عليها المنهج السلفي، فالدارس لهذا المنهج و المتتبع له قديماً و حديثاً يجد انّ علماء السلف يجمعون علي الاستدلال بالكتاب و السنة في كافة امورهم و في جميع مسائل و قضايا الاعتقاد و التشريع و السلوك و قضايا المعرفة عموماً...

**"Sələfi yolu bir sıra əsaslı qaydalara və aydın təməllərə əsaslanır ki, bunlar vasitəsilə o, digər məzhəb, tayfa və firqələrin yollarından fərqlənir... O qaydalardan biri Quran ayələri və Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) sünnəsi ilə istidlal etməkdir... Bu, sələfi yolunun əsaslandığı mühüm qaydalardandır. Bu yolu tədqiq edən və onun keçmiş və müasir dövlərlərdəki (vəziyyətinə) nəzər salan şəxs görür ki, sələf alimləri bütün işlərində və bütün məsələlərdə; etiqadi, şəri, rəftari və mərifətlə bağlı məsələlərdə Quran və sünnə ilə istidlal etmək barədə icma etmişlər..."**[58]

Doktor Qovsi yenə deyir:

فمن اهمّ قواعد منهج السلف اهل السنة و الجماعة استخدامهم الأدلّة المنطقية و الأقيسة العقلية المستنبطة من النصوص الشرعيّة في الكتاب و السنة، انطلاقاً من قناعتهم:

1. بانّه ما من مسألة من المسائل الكلامية و الفلسفية الّتي خاض فيها الخائضون الاّ و كانت قد أوضحت في القرآن...

[56] "Məcmuul-fətava", c.9, s.225.

[57] "Muxtəsərus-səvaiqil-mursələ", s.82-83.

[58] "Əl-Mənhəcus-sələfi", s.357.

2. و بأنّ الرسول الكريم(صلّى الله عليه و سلّم) جاء مؤيّداً من ربّه بالحجج و البراهين العقلية، كما قال تعالي: «وَ لا يَأْتُونَكَ بِمَثَلٍ إِلاَّ جِئْناكَ بِالْحَقِّ وَأَحْسَنَ تَفْسِيراً».
3. و بانّ هذه الأدلة و الحجج و البراهين العقلية المستنبطة من النصوص الشرعية فيها الغناء لطالب العقيدة الاسلامية، و بأنّها براهين قطعية ملزمة... قال تعالي: «وَ لَقَدْ ضَرَبْنا لِلنَّاسِ فِي هذَا الْقُرْآنِ مِنْ كُلِّ مَثَلٍ».
4. و استخدامهم دلالات الأنفس و الآفاق و المعجزات في الاستدلال علي الله عزّوجلّ و معرفته...

**"Sünnə və cəmaət əhli olan sələflərin yolunun mühüm qaydalarından biri də onların kitab və sünnədəki mətnlərdən çıxarılmış məntiqi dəlillərdən və əqli qiyaslardan istifadə etmələridir. Onlar bunu belə əsaslandırmışlar:**

**1. Alimlərin məşğul olduqları istənilən fəlsəfi və kəlami (əqidəvi) məsələ Quranda izah edilmişdir ...**

**2. Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi [və alihi] və səlləm) Rəbbi tərəfindən əqli dəlillər və bürhanlarla dəstəklənmiş halda göndərilmişdir. Necə ki, Allah-taala buyurmuşdur: "*Onlar sənin üçün hər nə məsəl və sifət gətirsələr, Biz (cavabında) sənin üçün həqiqəti və daha gözəl izah, açıqlama gətirərik.*"[59]**

**3. Şəri mətnlərdən çıxarılmış bu əqli dəlillər, höccətlər və bürhanlar İslam əqidəsini öyrənmək və ona yiyələnmək istəyən şəxsə kifayət edir. Bu dəlillər qəti və möhkəm dəlillərdir... Allah-taala buyurur: "*Doğrudan da, Biz bu Quranda insanlar üçün, bəlkə ibrət götürdülər deyə, hər cür məsəl çəkdik.*" [60]**

**4. Sələflər Allahın varlığına dəlil kimi insanın daxilində və xarici aləmdə mövcud olan dəlillərdən və möcüzələrdən istifadə etmişlər...[61]**

Doktor Qovsi yenə yazır:

و ذلك باعتبارهما وحياً من الله عزّوجلّ يمتاز علي ما سواه من ادلة البشر و حججهم بمزايا عديدة منها:
1. العصمة عن الخطأ و الميل و الشطط.
2. اعتماده في الاستدلال علي ما فطرت عليه النفوس من الايمان بالمشاهد المحسوس، فهو اقوي في الحجة و ابلغ في الأثر.
3. اشتماله علي التوجيه و الارشاد و الدعوة بالتي هي احسن، و لاشك انّ اسلوب الرفق و اللين ادعى لقبول الحق و الرضى به.
4. مخاطبة الانسان بأروع مظاهر القوة و أساليب البيان و الإقناع، فيرضي العقول السليمة و يحرك المشاعر و يمتع الوجدان.
5. تقرير الحجج الصحيحة و ابطال الشبه الفاسدة و مجادلة المعاندين بما يشفي و يكفي.
6. اتخاذه في تقرير العقيدة الاسلامية منهجاً ذا شقّين:
أحدهما: هدم العقائد الفاسدة و الثاني: بناء العقيدة الصحيحة.

---

[59] Furqan surəsi, 33-cü ayə.
[60] Zumər surəsi, 27-ci ayə.
[61] "Əl-Mənhəcus-sələfi", s.367-372.

**“Allah tərəfdən vəhy vasitəsilə çatdırıldıqlarına görə Quran və sünnə bəşərin höccət və dəlillərindən bir çox üstünlüklərinə görə fərqlənir. Həmin üstünlüklərə misal olaraq bunları göstərmək olar:**

**1. Xətadan, nöqsandan və azğınlıqdan məsum olmaq.**

**2. Nəfslərin gözlə görülüb hiss edilən şeylərə iman gətirmək üzərə yaradılmış olması səbəbindən istidlal zamanı bu prinsip əsasında istidlal etməsi[62]. Belə ki, bu, ən güclü höccət və ən çox təsir qoyan üslubdur.**

**3. Özündə ən gözəl şəkildə yönləndirmə, doğru yol göstərmə və dəvət etməni ehtiva etməsi. Şübhə yoxdur ki, mehribanlıq və mülayimlik üslubu haqqın qəbul edilməsinə və ondan razı qalınmasına səbəb olan ən üstün üslubdur.**

**4. İnsana ən gözəl dəlillərlə, ən gözəl bəyan etmə və qane etmə üslubları ilə xitab etməsi. Bununla sağlam ağılları razı salır, hissləri hərəkətə gətirir və vicdanlar ondan bəhrə aparır.**

**5. Düzgün-səhih dəlillər ortaya qoyması, fəsadcıl şübhələri batil edib aradan aparması, inadkarlarla müalicəedici və kifayətedici üslubla mübarizə aparması.**

**6. İslam əqidəsini möhkəmlədərkən iki hissədən ibarət bir yol seçməsi:**

**Birinci: batil şübhələri uçurması. İkinci: səhih əqidəni inşa etməsi.”**

**Cavab:**

1. Bizim Qurani Kərimin bütün əqidə və dini məsələləri isbat etmək üçün bütün yolları əhatə etdiyinə əqidə bəsləməmizə baxmayaraq, İslam zühur edəndən sonra müxtəlif fəlsəfi məktəblər yarandı, bunların bəzisi Allahı, bəzisi isə dinin bəzi təlimlərini inkar etdi. Buna görə də bu təlimləri isbat etmək üçün əqli və fəlsəfi dəlillərdən istifadə etməkdən başqa çarəmiz qalmadı.

2. Ağlın məntiq, kəlam və fəlsəfə elmlərini əhatə etməsində olan hədəfimiz o üslubdur ki, onun vasitəsilə biz Quran və sünnədən daha yaxşı istifadə edib, istidlal edə bilirik.

3. Quran xüsusi yerlərdə müxaliflərin şübhələrinə cavab vermişdir. Halbuki İslamın əsaslarına hücum xarakterli daha müasir şübhələr ortaya çıxır. Buna görə də biz gərək əqli prinsipləri bir qaydaya salaraq öyrənək və bu yeni şübhələrə cavab verək.

Buna görə də Qurani Kərim və rəvayətlər bir çox yerdə bizi düşünməyə dəvət edir.

---

62 İnsan nəfsi gözlə görülüb hiss edilən şeylərə heç bir maneəsiz iman gətirir. Ona görə də Quran və sünnə istidlal (dəlil gətirmə) zamanı bu məsələni nəzərə almış, istidlal zamanı belə şeylərdən istifadə etmişdir. Məsələn, göylərin və yerlərin, müxtəlif heyvanların, ümumiyyətlə aləmin nizamının necəliyinə, yaradılışına və xariqul-adəliyinə diqqət çəkmişdir. [Red.]

**Quran və təfəkkürə dəvət**

Quran ayələrindən bu nəticəyə gəlmək olur ki, Allah-taala insanları qeyd-şərt olmadan təfəkkür etməyə dəvət edir. Allah-taala insanlardan istəyir ki, ağıllarından istifadə etsinlər və mümkün olan hər yerdə ondan faydalansınlar. Daha vəhhabilərin dediyi kimi təkcə Quranın nəss və dəlillərini başa düşmək üçün istifadə etməsinlər. Bu ayələrdən nümunə olaraq bir neçəsini qeyd edirik:

**1.** Allah-taala buyurur:

وَ مِنْ آياتِهِ يُرِيكُمُ الْبَرْقَ خَوْفاً وَطَمَعاً وَيُنَزِّلُ مِنَ السَّماءِ ماءً فَيُحْيِي بِهِ الأَرْضَ بَعْدَ مَوْتِها إِنَّ فِي ذلِکَ لآياتٍ لِقَوْمٍ يَعْقِلُونَ

**“(Şimşəyi və) ildırımı qorxu və ümid üçün (viran olmaq qorxusu və yağışa olan ümid) sizə göstərməsi və göydən su nazil etməsi, onun vasitəsilə yeri öldükdən sonra diriltməsi də onun nişanələrindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün (Onun qüdrət və hikmətinə dair) nişanələr vardır.**[63]

2. Yenə də buyurur:

وَ لا تَقْتُلُوا النَّفْسَ الَّتِي حَرَّمَ اللهُ إِلاَّ بِالْحَقِّ ذلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ

**“Həmçinin Allahın möhtərəm saydığı və öldürülməsini haram buyurduğu canı - (qisas, şəriətin müəyyənləşdirdiyi cəza hədlərinin icrası və ya müdafiə məqsədli) haqq (öldürmələr) istisna olmaqla – öldürməyin. Bəlkə düşünəsiniz deyə Allahın sizə tapşırdıqları bunlardır.”** [64]

3. Allah-taala yenə buyurur:

وَ قالُوا لَوْ كُنَّا نَسْمَعُ أَوْ نَعْقِلُ ما كُنَّا فِي أَصْحابِ السَّعِيرِ

**“Və deyərlər: Əgər Biz (həqiqətən,) eşitsəydik, ya düşünsəydik, əsla yanar Cəhənnəm odunun əhli zümrəsində olmazdıq.”** [65]

4. Həmçinin buyurur:

إِنَّ فِي خَلْقِ السَّماواتِ وَالأَرْضِ وَاخْتِلافِ اللَّيْلِ وَالنَّهارِ لآياتٍ لِأُولِي الأَلْبابِ

**“Həqiqətən göylərin və yerin yaradılışında, gecə ilə gündüzün get-gəlində sağlam ağıl və fikir sahibləri üçün (Allahın qüdrət, elm və hikmətini göstərən) nişanələr vardır.”**[66]

**Quranın təfəkkürə dəvət etməkdə olan üslubları**

Qurani Kərim müxtəlif yollarla düşünməyə dəvət etmişdir. Biz onlardan bəzilərinə işarə edirik:

[63] Rum surəsi, 24-cü ayə.
[64] Ənam surəsi, 151-ci ayə.
[65] Mülk surəsi, 10-cu ayə.
[66] Ali-İmran surəsi, 190-cı ayə.

**1. Allahın ayələri barəsində düşünməyə dəvət**

Allah-taala buyurur:

كَذلِكَ يُبَيِّنُ اللهُ لَكُمُ الآياتِ لَعَلَّكُمْ تَعْقِلُونَ

**"Allah Öz ayələrini (dinin hökmlərini) sizə bu cür aydınlaşdırır ki, bəlkə düşünəsiniz."[67]**

Başqa yerdə isə buyurur:

يُبَيِّنُ اللهُ لَكُمُ الآياتِ لَعَلَّكُمْ تَتَفَكَّرُونَ

**"Allah öz ayələrini sizə bu cür açıqlayır ki, bəlkə düşünəsiniz." [68]**

**2. Təfəkkür etməməkdən təəccüblənmək**

Allah-taala buyurur:

أَ فَلا يَتَدَبَّرُونَ الْقُرْآنَ وَلَوْ كانَ مِنْ عِنْدِ غَيْرِ اللهِ لَوَجَدُوا فِيهِ اخْتِلافاً كَثِيراً

**"Bəs məgər onlar bu Qur'anın (maarifi) barəsində düşünmürlər?! Əgər o, Allahdan qeyrisi tərəfindən olmuş olsaydı, şübhəsiz, onda çoxlu ziddiyyət tapardılar."[69]**

**3. Düşünən insanların təriflənməsi**

Allah-taala buyurur:

وَ ما يَذَّكَّرُ إِلاَّ أُولُوا الأَلْبابِ

**"Əsl ağıl sahiblərindən başqa heç kəs öyüd almaz." [70]**

Yenə də buyurur:

كَذلِكَ نُفَصِّلُ الآياتِ لِقَوْمٍ يَعْقِلُونَ

**"Beləcə (Öz tovhid) ayə(lərimiz)i ağılla düşünən bir qövm üçün bütün təfsilatı ilə bəyan edirik (ki, bilsinlər: müşriklərin məbudları rübubi məqamda deyildirlər, əksinə, Allahın mülküdürlər Onun şəriki deyillər)."[71]**

**4. Düşünməməyin məzəmməti.**

Allah-taala buyurur:

إِنَّ شَرَّ الدَّوَابِّ عِنْدَ اللهِ الصُّمُّ الْبُكْمُ الَّذِينَ لا يَعْقِلُونَ

**"Həqiqətən, Allah yanında, tərpənən canlıların ən pisi düşünməyən (haqqı eşitməkdə) kar və (haqqı deməkdə) lal (olan) insanlardır."[72]**

Yenə də buyurur:

أَمْ تَحْسَبُ أَنَّ أَكْثَرَهُمْ يَسْمَعُونَ أَوْ يَعْقِلُونَ إِنْ هُمْ إِلاَّ كَالأَنْعامِ بَلْ هُمْ أَضَلُّ سَبِيلاً

---

[67] Bəqərə surəsi, 242-ci ayə.
[68] Bəqərə surəsi, 219-cu ayə.
[69] Nisa surəsi, 82-ci ayə.
[70] Bəqərə surəsi, 269-cu ayə.
[71] Rum surəsi, 28-ci ayə.
[72] Ənfal surəsi, 22-ci ayə.

**“Yoxsa onların çoxunun (sənin dediklərini) eşitdiyini və ya düşündüyünü güman edirsən? (Xeyr,) onlar yalnız heyvanlar kimidirlər, hətta daha azğındırlar.”[73]**

**Qurani Kərimin baxışında təfəkkür nümunələri**

Qurani Kərim müxtəlif yerlərdə düşünməyə dəvət etməyi hədəflərə çatmaq kimi tanıtmışdır.

**1. Yer və göy haqqında təfəkkür etmək**

**Allah-taala buyurur:**

قُلِ انظُرُواْ مَاذَا فِي السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا تُغْنِي الآيَاتُ وَالنُّذُرُ عَن قَوْمٍ لاَّ يُؤْمِنُونَ

**“De: Göylərdə və yerdə (yaradılışın) nə (cür heyrətamiz qəribəliklərinin) olmasına baxın. Lakin nişanələr və öyüdlər iman gətirməyən dəstəyə əsla fayda vermir və (qəflət və zəlaləti) onlardan uzaqlaşdırmır.”[74]**

**2. İnsanın ətrafında olan məxluqlar haqqında düşünmək**

Allah-taala buyurur:

أَ فَلا يَنْظُرُونَ إِلَي الْإِبِلِ كَيْفَ خُلِقَتْ * وَإِلَي السَّماءِ كَيْفَ رُفِعَتْ * وَإِلَي الْجِبالِ كَيْفَ نُصِبَتْ

**“Məgər onlar dəvəyə baxmırlarmı ki, necə yaradılmışdır? Və göyü (görmürlər) ki, necə ucaldılmışdır? Və dağlara (baxmırlar) ki, (yerin səthinə) necə mıxlanmış və qamətləri dikəlmişdir?”[75]**

**3. İnsanın özü barəsində düşünməsi**

Allah-taala buyurur:

وَ فِي أَنْفُسِكُمْ أَ فَلا تُبْصِرُونَ

**“Həmçinin sizin öz vücudunuzda (cisminizin kəmiyyət və keyfiyyət baxımından hərəkətində, bədən üzvlərinizin quruluşunda, ruhun bədənlə əlaqəsinin necəliyində, onun bədən üzvlərinə hakim olmasında, ağılda və ruhun bir-birinə zidd sifətlərində, nəsil artımında və ictimai əlaqələrinizdə də nişanələr vardır). Belə isə məgər görmürsünüz?!”[76]**

**Quranın təfəkkür etməyə dəvət etməsinin məqsədləri**

Qurani kərim insanları düşünməyə dəvət etməsində bir sıra məqsədlər güdmüşdür:

**1. İnsanın daxilində və xarici aləmdə ilahi qüdrətlə tanışlıq**

Allah-taala buyurur:

---

[73] Furqan surəsi, 44-cü ayə.
[74] Yunus surəsi, 101-ci ayə.
[75] Ğaşiyə surəsi, 17-19-cu ayələr.
[76] Zariyat surəsi, 21-ci ayə.

أَ فَمَنْ يَخْلُقُ كَمَنْ لا يَخْلُقُ أَ فَلا تَذَكَّرُونَ

**“Belə isə, heç yaradan kəs yaratmayan kəs kimidir? Heç öyüd-nəsihət almırsınız?!”[77]**

Yenə də buyurur:

هذا خَلْقُ اللهِ فَأَرُونِي ما ذا خَلَقَ الَّذِينَ مِنْ دُونِهِ بَلِ الظَّالِمُونَ فِي ضَلالٍ مُبِينٍ

**“Bunlar Allahın yaratdıqlarıdır, (siz də) Mənə Allahdan başqalarının nə yaratdığını göstərin. (Onlar heç bir şey yaratmamışlar), xeyr, bu zalımlar açıq-aşkar azğınlıq içindədirlər.”[78]**

**2. İlahi hikmətin sirləri ilə tanışlıq**

Allah-taala buyurur:

وَ سَخَّرَ لَكُمْ ما فِي السَّماواتِ وَما فِي الأَرْضِ جَمِيعاً مِنْهُ

**“Göylərdə və yerdə olanları – (varlıq və idarə edilmələri) Onun tərəfindən olanların hamısını sizin xeyrinizə ram etdi. Həqiqətən, bunda (bu ram etmədə) düşünən dəstə üçün (Onun tovhid, qüdrət və mərhəmətindən) nişanələr vardır.”[79]**

**3. Din qanunlarının hikməti ilə tanışlıq**

Allah-taala buyurur:

وَ لِلْمُطَلَّقاتِ مَتاعٌ بِالْمَعْرُوفِ حَقًّا عَلَي الْمُتَّقِينَ * كَذلِكَ يُبَيِّنُ اللهُ لَكُمْ آياتِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ

**“Və talaq verilmiş qadınlara (ər tərəfindən) münasib mal və yaşayış şəraiti lazımdır (iddə gözlədiyi müddətin xərcləri və talaqın növündən asılı olaraq mehriyyənin hamısı və ya bir hissəsi onlara verilməlidir). Bu, təqvalıların boynunda sabit və vacib (bir vəzifə)dir. Talaq verilmiş qadınlara (ər tərəfindən) münasib mal və yaşayış şəraiti lazımdır (iddə gözlədiyi müddətin xərcləri və talaqın növündən asılı olaraq mehriyyənin hamısı və ya bir hissəsi onlara verilməlidir). Bu, təqvalıların boynunda sabit və vacib (bir vəzifə)dir.”[80]**

Yenə də buyurur:

وَ أَنْ تَصُومُوا خَيْرٌ لَكُمْ إِنْ كُنْتُمْ تَعْلَمُونَ

**“Oruc tutmaq (çətin və məşəqqətli olsa da), sizin üçün daha yaxşıdır, əgər bilsəniz!”[81]**

Yenə də buyurur:

يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا نُودِيَ لِلصَّلاةِ مِنْ يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا إِلي ذِكْرِ اللهِ وَذَرُوا الْبَيْعَ ذلِكُمْ خَيْرٌ لَكُمْ إِنْ كُنْتُمْ تَعْلَمُونَ

---

[77] Nəhl surəsi, 17-ci ayə.

[78] Loğman surəsi, 11-ci ayə.

[79] Casiyə surəsi, 13-cü ayə.

[80] Bəqərə surəsi, 241-242-ci ayələr.

[81] Bəqərə surəsi, 184-cü ayə.

**“Ey iman gətirənlər, cümə günü namaza çağrılan zaman, Allahı zikr etməyə (cümə namazına) tələsin və alış-verişi buraxın! Əgər bilsəniz, bu sizin üçün daha xeyirlidir.” [82]**

**4. Tarixin fəlsəfəsi və onun ibrətləri haqqında agahlıq**

Allah-taala buyurur:

قَدْ خَلَتْ مِنْ قَبْلِكُمْ سُنَنٌ فَسِيرُوا فِي الأَرْضِ فَانْظُروا كَيْفَ كانَ عاقِبَةُ الْمُكَذِّبِينَ

**“Əlbəttə, sizdən öncə ilahi ənənəyə (Allahın dəyişməz ənənəvi qanunlarına) əsasən (kütləvi məhv etmələr kimi) bir sıra hadisələr ötüb keçmişdir. Odur ki, yer üzündə gəzib-dolanın və təkzib edənlərin aqibətinin necə olmasına baxın!” [83]**

Digər bir ayədə isə buyurur:

أَ وَلَمْ يَسِيرُوا فِي الأَرْضِ فَيَنْظُرُوا كَيْفَ كانَ عاقِبَةُ الَّذِينَ مِنْ قَبْلِهِمْ كانُوا أَشَدَّ مِنْهُمْ قُوَّةً وَأَثارُوا الأَرْضَ وَعَمَرُوها أَكْثَرَ مِمَّا عَمَرُوها وَجاءَتْهُمْ رُسُلُهُمْ بِالْبَيِّناتِ فَما كانَ اللهُ لِيَظْلِمَهُمْ وَلكِنْ كانُوا أَنْفُسَهُمْ يَظْلِمُونَ

**“Məgər onlar yer üzündə gəzib – dolanmadılarmı ki, görsünlər onlardan öncəkilərin aqibəti necə olmuşdur? Onlar bunlardan daha qüvvətli idilər və torpağı (əkinçilik, bağçılıq və s. üçün) şumlamış və bunların abad etdiklərindən çox abad etmişdilər. Peyğəmbərləri onlara (tovhid, peyğəmbərlik və məad barədə) aydın dəlillər gətirdilər, (lakin inkar və təkziblərinin cəzası olaraq məhv oldular), beləliklə Allah onlara zülm edən deyildi. Lakin onlar özləri-özlərinə zülm edirdilər.”[84]**

**Ağlı mədh edən rəvayətlər**

Bir çox rəvayətlərdə də ağıl mədh olunmuşdur.

**1. Əhli beytin (əleyhimus-salam) hədisləri**

Rəvayətlərdə ağıl Allah-taala tərəfindən insanın ruhuna bəxş olunmuş bir nurdur. Bu ağıl zatən zahirdə olan və digərlərini də zahirə çıxaran bir qüvvədir. O, zatən məsum olan Allahın hüccətidir. O, hər hüccətin hüccət olmasını möhkəmləndirir. O, həddi-təklif olmanın, savab və əzabın meyarıdır. Batillə haqqın, şərlə xeyrin arasında olan fərq ağlın vasitəsilə qoyulur... Biz bəzi rəvayətləri araşdıranda görürük ki, Allahın vücudunu isbat etmək üçün əqli dəlillərdən istifadə olunur. Biz o rəvayətlərin bəzilərinə işarə edirik:

a) Əmirəlmöminin Əli (əleyhis-salam) buyurur:

بِصُنْعِ اللهِ يُسْتَدَلُّ عَلَيْهِ وَبِالْعُقُولِ تُعْتَقَدُ مَعْرِفَتُهُ وَبِالتَّفَكُّرِ تَثْبُتُ حُجَّتُهُ

---

[82] Cümə surəsi, 9-cu ayə.
[83] Ali-İmran surəsi, 137-ci ayə.
[84] Rum surəsi, 9-cu ayə.

**“Allahın yaratdıqlarının vasitəsilə Allahın varlığına dəlil gətirilir. Ağılların vasitəsilə Allahı tanımağın (zəruriliyinə) etiqad bəslənilir. Təfəkkürün vasitəsilə Allahın hüccəti sabit olur.”** [85]

b) Həzrət (əleyhis-salam) yenə buyurur:

بِالْعُقُولِ يُعْتَقَدُ التَّصْدِيقُ بِاللهِ وَبِالأقْرَارِ يَكْمُلُ الأيمَانُ

**“Ağılların vasitəsilə Allahı təsdiq etməy(in zəruriliyin)ə etiqad bəslənir. İqrar etməklə iman kamilləşir.”** [86]

c) İmam Baqir (əleyhis-salam) buyurur:

لما خلق الله العقل استنطقه، ثم قال له: أقبل فأقبل، ثم قال له: أدبر فأدبر، ثم قال: وعزتي وجلالي ما خلقت خلقا هو أحب الي منك، ولا اكملتك الا فيمن أحب أما اني اياك آمر واياك أنهى واياك اعاقب واياك اثيب.

**“Allah ağılı yaratdıqdan sonra onu müraciət edib dedi: “Qabağa gəl!” Ağıl qabağa gəldi. Sonra ona buyurdu: “Geriyə qayıt”! O da geriyə qayıtdı. Sonra Allah-taala buyurdu: “Öz izzət və cəlalıma and olsun ki, səndən sevimli bir məxluq yaratmamışam. Səni yalnız sevdiyim bəndələrdə kamilləşdirərəm. Sənə görə əmr və qadağan edib, sənə görə mükafat və əzab verərəm”.”**[87]

İmam Sadiq (əleyhis-salam) buyurub:

إِنَّ أَوَّلَ الأمُورِ وَمَبْدَأَهَا وَقُوَّتَهَا وَعِمَارَتَهَا الَّتِي لا يُنْتَفَعُ بِشَيْءٍ إِلاَّ بِهِ الْعَقْلُ الَّذِي جَعَلَهُ اللهُ زِينَةً لِخَلْقِهِ وَنُوراً لَهُمْ فَبِالْعَقْلِ عَرَفَ الْعِبَادُ خَالِقَهُمْ وَأَنَّهُمْ مَخْلُوقُونَ وَأَنَّهُ الْمُدَبِّرُ لَهُمْ وَأَنَّهُمُ الْمُدَبَّرُونَ وَأَنَّهُ الْبَاقِي وَهُمُ الْفَانُونَ وَاسْتَدَلُّوا بِعُقُولِهِمْ عَلَي مَا رَأَوْا مِنْ خَلْقِهِ مِنْ سَمَائِهِ وَأَرْضِهِ وَشَمْسِهِ وَقَمَرِهِ وَلَيْلِهِ وَنَهَارِهِ وَبِأَنَّ لَهُ وَلَهُمْ خَالِقاً وَمُدَبِّراً لَمْ يَزَلْ وَلا يَزُولُ وَعَرَفُوا بِهِ الْحَسَنَ مِنَ الْقَبِيحِ وَأَنَّ الظُّلْمَةَ فِي الْجَهْلِ وَأَنَّ النُّورَ فِي الْعِلْمِ فَهَذَا مَا دَلَّهُمْ عَلَيْهِ الْعَقْلُ.

**“İşlərin əvvəli, qüvvəsi və sütunu – hansı ki, bu olmazsa heç bir şeydən faydalanmaq olmaz – məhz ağıldır. Allah ağılı məxluqatı üçün bir zinət və nur qərar vermişdir. Ağılla bəndələr Yaradanlarını tanımış, özlərinin məxluq olduqlarını bilmişlər. Ağılla (Yaradanlarının) onların işlərini idarə edən olduğunu, özlərinin isə (işləri) idarə edilənlər olduqlarını bilmişlər. Ağılla (Yaradanlarının) əbədi, özlərinin isə fani olduqlarını bilmişlər. Onlar Allahın səma, yer, günəş, ay, gecə və gündüz kimi məxluqatına baxıb ağılları ilə bu məxluqatın və özlərinin daim mövcud olan və olacaq bir Yaradanları və Müdəbbirləri (işləri idarə edənləri) olduğunu dərk etmişlər. Bəndələr ağılla yaxşını pisdən ayırd etmiş, ağılla zülmətin cəhalətdə, nurun isə elmdə olduğunu bilmişlər. Bütün bunları onlara ağıl göstərmişdir.”**

c) Yenə də buyurur:

---

[85] “Tuhəful-uqul”, s.62.
[86] “Tuhəful-uqul”, s.66.
[87] “əl-Kafi”, c.1, s.10; “əl-Məhasin”, s.192; “Biharul-ənvar”, c.1, s.96.

مَنْ كَانَ عَاقِلا كَانَ لَهُ دِينٌ وَمَنْ كَانَ لَهُ دِينٌ دَخَلَ الْجَنَّةَ.

**"Kim ağıl sahibi olsa dini də olar. Kimin dini olsa cənnətə daxil olar."[88]**

d) İmam Musa Kazim (əleyhis-salam) buyurub:

يَا هِشَامُ إِنَّ للهِ عَلَي النَّاسِ حُجَّتَيْنِ حُجَّةً ظَاهِرَةً وَحُجَّةً بَاطِنَةً؛ فَأَمَّا الظَّاهِرَةُ فَالرُّسُلُ وَالانْبِيَاءُ وَالأَئِمَّةُ(عليهم السلام) وَأَمَّا الْبَاطِنَةُ فَالْعُقُولُ.

**"Ey Hişam, Allahın insanlar üzərində iki höccəti vardır: Aşkar və gizlin höccət. Aşkar höccətlər rəsullar, nəbilər və imamlardır (əleyhimus-salam). Gizlin höccət isə ağıldır."[89]**

e) İbn Sikkit İmam Rzaya (əleyhis-salam) belə bir sual verdi: İndiki zamanda xalqın üzərində Allahın höccəti nədir? İmam (əleyhis-salam) buyurdu:

الْعَقْلُ، يُعْرَفُ بِهِ الصَّادِقُ عَلَي اللهِ فَيُصَدِّقُهُ وَالْكَاذِبُ عَلَي اللهِ فَيُكَذِّبُهُ

**"Ağıl. Onun vasitəsilə Allah barədə doğru danışan tanınar və təsdiq olunar. Onun vasitəsilə Allaha yalan nisbət verən tanınar və təkzib olunar."[90]**

Bu və ya digər rəvayətlərdən belə nəticə alınır ki, Allah-taala ağılları Onu tanımaq əsasında yaratmış və Özünü onlara tanıtmışdır.

Buna əsasən ağlı olan və ağlın məqamını dərk edən kəslər mütləq Allahı tanıyacaqlar. Lakin bunu da bilməliyik ki, ağlın da müxtəlif mərhələləri vardır. Ağlın nurundan kim daha çox istifadə edirsə, o daha çox Allaha mərifət kəsb edir (yəni Onu tanıyır- Müt).

**2. Əhli sünnə hədisləri**

a) Təbərani öz sənədilə İbn Abbasdan Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) belə buyurduğunu nəql edir:

أَنَا الشَّاهِدُ عَلَي اللهِ عَزَّوَجَلَّ أنْ لايَعْثَرَ عَاقِلٌ إلاّ رَفَعَهُ اللهُ عَزَّوَجَلَّ، ثُمَّ لايَعْثَرُ إلاّ رَفَعَهُ حَتّي يَجْعَلَ مَصِيرَهُ إِلَي الجَنَّةِ

**"Mən Allahın (bu deyəcəyim şeyi edəcəyinə) şahid dururam: əgər ağılı olan bir kəs büdrəyərsə, Allah-taala onu qaldırar. Sonra yenə də büdrəyərsə, yenə də Allah onu qaldırar. Nəhayət onun yolunu (və gedəcəyi yeri) Cənnətə qərar verər."[91]**

b) Əhməd ibn Hənbəl və digərləri öz sənədlərilə Əbu Hüreyrədən Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) belə buyurduğunu nəql edirlər:

كَرَمُ المَرْءِ دِينُهُ وَمُرُوءَتُهُ عَقْلُهُ وَحَسَبُهُ خُلْقُهُ

---

88 "əl-Kafi", c.1, s.11; "Səvabul-əmal", s.14; "Biharul-ənvar", c.1, s.91.

89 "əl-Kafi", c.1, s.16; "Tuhəful-uqul", s.386; "Biharul-ənvar", c.1, s.137.

90 "əl-Kafi", c.1. s.25 ; "Uyunu-əxbarir-Rza", c.1, s.86; "Biharul-ənvar", c.1, s.137.

91 Təbərani, "Əl-Mucəmus-sağir", c.2, s.30; Heysəmi, "Məcməuz-zəvaid", c.6, s.282 və c.8, s.29.

**“Kişinin kəraməti onun dini, mürüvvəti onun ağlı, hörməti isə onun əxlaqıdır.”[92]**

c) Təbərani və digərləri öz sənədilə Qasim ibn Bəzzənin belə dediyini nəql edirlər:

إنَّ رَجُلاً مِنْ بَنِي قُشَيْرٍ أَتَي النَّبِي(صلّى الله عليه و سلّم) فَقَالَ: إنَّمَا كُنَّا نَعْبُدُ فِي الجَّاهِلِيَّةِ أوْثَاناً وَكُنَّا نَرَي أَنَّها تَضُرُّ وَتَنْفَعْ. فَقَالَ رَسُولُ اللهِ(صلّى الله عليه و سلّم) : أَفْلَحَ مَنْ جَعَلَ اللهُ عَزَّوجَلَّ لَهُ عَقْلاً

**“Bəni Qüşeyr qəbiləsindən olan bir kişi Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəlib dedi: Biz cahiliyyət dövründə bütlərə ibadət edirdik, onların xeyir və zərər verdiklərini düşünürdük. Həzrət (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: Allahın ağıl bəxş etdiyi kəslər nicat tapmışdır.”[93]**

ç) Təbərani öz sənədilə Əbu Hüreyrədən Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) belə buyurduğunu nəql edir:

لَمَّا خَلَقَ اللهُ تَعَالَي العَقْلُ قَالَ لَهُ: قُمْ، فَقَامَ. ثُمَّ قَالَ لَهُ: أدْبِرْ، فَأَدْبَرَ، ثُمَّ قَالَ لَهُ: أَقْبِلْ، فَأَقْبَلَ، ثُمَّ قَالَ لَهُ: أَقْعُدْ، فَقَعَدَ. فَقَالَ اللهُ عَزَّوَجَلَّ: مَا خَلَقْتُ خَلْقَاً خَيْرَاً مِنْکَ وَلا أَكْرَمُ مِنْکَ وَلا أَفْضَلُ مِنْکَ ولا أَحْسَنُ مِنْکَ؛ بِکَ آخُذْ وَبِکَ أعْطِي وَبِکَ أَعِزُّ، وَبِکَ أُعْرَفُ، وَإيّاکَ أُعاتِبُ، بِکَ الثَّوابُ وَعَلَيْکَ العِقَابُ

**“Allah-taala ağlı yaradandan sonra ona buyurdu: Qalx ayağa! Ağıl ayağa qalxdı. Sonra buyurdu: Arxanı çevir! O da arxasını çevirdi. Sonra Allah-taala ona buyurdu: Üzünü Mənə tut! O da üzünü Allaha tərəf tutdu. Sonra buyurdu: Otur! O da oturdu. Sonra Allah-taala buyurdu: Səndən xeyirli, kəramətli, fəzilətli və yaxşı bir məxluq yaratmamışam. Sənin vasitənlə alıb, sənin vasitənlə bəxş edərəm. Səninlə izzət bəxş edər, sənin vasitənlə tanınaram. Səninlə məzəmmət edər, sənin vasitənlə mükafat verər, sənə görə əzab edərəm.”[94]**

**Ağlın qeydsiz-şərtsiz xətalı olması dövr meydana gətirir**

Etiqadi məsələləri üç hissəyə bölmək olar:

1. Etiqadi məsələlərin bəziləri sırf ağılla sübut olunur. Lakin nəqldən istifadə etmək isə sadəcə o məsələni təsdiq etmək və imanı artırmaq üçündür. Əgər belə olmasa, dövr meydana gəlir. Məsələn, Allahın varlığının sübutu və Onun sidq sifət kimi bəzi sifətləri yalnız ağlın vasitəsilə sübut olunur. Çünki yalnız ağılla Allah isbat olunmasa, sadəcə Allahın Öz kəlamı olan Quran və ya Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) sünnəsilə isbat olunsa, burada dövr meydana gələcək. Çünki Allahın Özünü Onun sözü ilə sübut edirsən. Bu da düz istidlal növü deyildir.

2. Digər əqidə məsələləri isə həm ağılla, həm də nəqllə sübut olunur. Əql və nəql burada bir-birini qüvvətləndirir. Məsələn, nübüvvət, imamət və məad prinsipləri kimi

[92] “Müsnədi-Əhməd”, c.2, s.365; “Sünəni-Darəqutni”, c.3, s.303; “Müstədrəkül-Hakim”, c.1, s.123 və c.2, s.163.

[93] Təbərani, “Əl-Mucəmul-kəbir”, c.1, s.132; Süyuti, “Əl-Camiul-kəbir”, h.3866.

[94] Təbərani, “Əl-mucəmul-əvsət”, c.2, s.503; Heysəmi, “Məcməuz-zəvaid”, c.8, s.28.

3. Bəzi etiqadi məsələlər isə yalnız nəqlin vasitəsilə sübut olunur, ağlın ora müdaxiləsi yoxdur. Məsələn, Quran və sünnədə Məadın bəzi məsələlərinə işarə olunur. Lakin bunlar ağılla yox, yalnız Quran və sünnə ilə sübut olunur.

**Quranın istiarə[95] və kinayələrdən[96] istifadə etməsi**

Allah-taala hər cəmiyyətin vəziyyətinə uyğun o cəmiyyətin peyğəmbərinə möcüzələr bəxş etmişdir. Buna görə də Musa (əleyhis-salam) peyğəmbərin dövründə sehr və cadu gündəmdə olduğu üçün Allah-taala Həzrət Musaya (əleyhis-salam) ağ əl və əsanı möcüzə olaraq əta etdi. Həzrət İsanın (əleyhis-salam) dövründə tibb elmi geniş yayıldığı üçün Allah-taala Həzrət İsaya (əleyhis-salam) cüzam xəstəliyini aradan aparmaq, ölüləri diriltmək və s. bu kimi xariqüladə işləri bəxş etmişdi. Həzrət Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) də dövründə ərəblərin arasında fəsahət və bəlağətin böyük əhəmiyyəti var idi. Camaat o zamanda fəsahət və bəlağətin ən yüksək zirvəsində idi. Buna görə də Allah-taala Öz peyğəmbərinə Quranı göndərdi. Bu Quran özündə bütün kamillikləri cəm etmiş, fəsahət və bəlağətin ən ali zirvəsində qərarlaşmışdır. Belə ki, heç kim Quran kimisini gətirə bilməz. Buna görə də İslamın düşmənləri Quranın müqabilində özlərini aciz gördəndən sonra Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) müharibəyə başladılar.

Bir kəlamın və ya kitabın fəsahət və bəlağəti ondadır ki, onda təşbeh,[97] məcaz,[98] istiarə və kinayələr ən yaxşı və kamil surətdə istifadə olunsun. Bu Quranda oxşarlıqların mənşəyidir.

Bu oxşarlıqları aradan aparmaq üçün bir sıra meyarlar lazımdır ki, insanı yəqinə çatdırsın və oxşarlıq pərdələrini Qurandan götürsün. Bununla da həqiqətləri aşkara çıxarsın. Bu meyarlardan biri də qəti əqlin hökmü və əqli aksiomlardır. Bu aksiomların vasitəsilə elm, yəqinlik hasil olur. Digər tərəfdən də Allah-taala bu ağlı hər kəsə nəsib etmiş və onların vücudunda əmanət qoymuşdur. Buna görə də düzgün əqli müqəddimələrdən istifadə edib ağlın qəti və aksiom olan hökmünə çatmaq olar.

---

[95] **İstiarə** : Sözlərin, ifadələrin hər hansı bir təşbeh, bənzəmə, müqayisə əsasında məcazi mənada işlənməsindən, yəni bir şeyə (hadisəyə) başqa bir şeyin (hadisənin) səciyyəvi əlamətinin keçirilməsindən ibarət bədii tərz; metafora; məsələn, şücaətli adama – aslan, şir; hiyləgər adama – tülkü deyilməsi kimi.

[96] **Kinayə** : Üstüörtülü, dolayı məna verən söz və ya ifadə.

.

[97] **Təşbeh**: Bir hadisəni, adamı və ya şeyi başqa bir hadisəyə, adama və ya şeyə bənzətməkdən ibarət məcaz.

[98] **Məcaz** : Həqiqi mənasında işlənməyib, oxşarlığı və münasibəti olan başqa bir mənaya oxşadılaraq işlənən söz və ya ifadə; metafora.

**Vəhhabilər və onların etiqadi məsələlərdə xəbəri-vahidə etimad etməsi**

Vəhhabilərin əsas nəzərlərindən biri də bütün etiqadi məsələlərdə xəbəri-vahidə etimad etmələridir. Məhəmməd Nasiruddin Albani yazır:

فقد ظهرت عند بعض علماء الكلام المسلمين منذ قرون طويلة فكرة خاطئة و رأي خطير، و ذلك هو قولهم: انّ حديث الآحاد ليس بحجة في العقائد الاسلامية، و ان كان حجة في الأحكام الشرعية! وقد اخذ بهذا الرأي عدد من علماء الاصول المتأخرين و تبنّاه حديثاً طائفة من الكتّاب و الدعاة المسلمين حتي صار عند بعضهم امراً بديهياً لايحتمل البحث و النقاش! و غلا بعضهم فقال: انّه لايجوز ان تُبني عليه عقيدة اصلا و من فعل ذلك فهو فاسق و آثم!!...

**"Uzun əsrlərdən bəri, bəzi kəlam (əqidə) alimlərinin nəzərində yanlış bir fikir, xətərli bir rəy formalaşmışdır. Belə ki, onlar, "Xəbəri-vahid şəri hökmlərdə höccət olsa da, İslamın etiqadi məsələlərində höccət deyildir", - demişlər. Bu rəyi bir sıra son dövr üsul alimləri qəbul etmişlər. Müasir dövrdə də bir dəstə müsəlman yazıçılar və dəvətçilər bunu (əsas prinsip) kimi qəbul etmişlər. Hətta, iş o yerə çatmışdır ki, bu rəy onların bəzilərinin nəzərində müzakirə və mübahisəyə ehtiyacı olmayan bir aksioma çevrilmişdir. Bəzilər isə daha da iftirata vararaq: "Xəbəri-vahid üzərində hər hansısa bir əqidə inşa etmək əsla caiz deyil, hər kim bunu etsə, fasiq və günahkardır..." demişdir!** [99]

**Vəhhabilərin dəlillərinin araşdırılması**

Albani bu barədə yazdığı kitabda bir neçə dəlilə əsaslanıb:

**Birinci dəlil:** O, deyir:

انّه قول مبتدَع محدَث، لا اصل له في الشريعة الاسلامية الغراء، و هو غريب عن هَدْيِ الكتاب و توجيهات السنة، و لم يعرفه السلف الصالح رضوان الله تعالي عليهم و لم ينقل عن احد منهم...

**"Bu söz uca İslam şəriətində heç bir əsası olmayan bidət (sonradan ortaya çıxmış) bir sözdür. Bu nəzər, Quranın yolundan, sünnənin buyuruqlarından uzaqdır. Saleh sələflərdən heç kəs buna etiqad etməmiş, onların heç birindən belə bir söz nəql edilməmişdir..."** [100]

**Cavab:**

1. Dediyimiz kimi, ayə və rəvayətlərin dediyinə görə etiqadda yəqinlik lazımdır.

2. Hədis ravilərinin hamısı ədalətli olmamış, səhv və xətadan qorunmamışlar. Buna görə də  qəti dəlil olmadan bu rəvayətlərə yəqinlik hasil etmək olmaz.

3. Quran və sünnə insanları əqidə məsələlərində, Allahı tanıma bəhsində təfəkkür etməyə çağırmış və bu məsələdə eyni nəzərdə olmuşlar. Bu yolla da insanlar imana çatmalıdırlar.

---

[99] Əlbani, "Vucubul-əxz bihədisil-ahad fil-əqidə", s.3.

[100] Əlbani, "Vucubul-əxz bihədisil-ahad fil-əqidə", s.7

**İkinci dəlil:** O, deyir:

انّ هذا القول يتضمّن عقيدة تستلزم ردّ مئات الأحاديث الصحيحة الثابتة عن النبي(صلّى الله عليه و سلّم) ، لمجرّد كونها في العقيدة...

**“Bu söz özündə elə bir əqidə ehtiva edir ki, bu əqidəyə əsasən, sırf əqidə ilə bağlı olduğu üçün Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) nəql olunan yüzlərlə səhih-sabit hədis rədd olunmalıdır...”** [101]

**Cavab:**

Biz bütün xəbər-vahidləri rədd etməyin lazım olması etiqadında deyilik. Əksinə biz onları araşdırır, əksəriyyətini – qəti ağıl və Quran nəssləri ilə uyğun olanını qəbul edirik. Lakin Quran və ağıldan uzaq olan və təvil olunmağa qabiliyyəti olmayan xəbəri-vahidlərin mənasına etiqad etmirik.

**Üçüncü dəlil:** O, yenə də deyir:

انّ القول المذكور ليس فقط لم يَقُل به الصحابة، بل هو مخالف لما كانوا عليه رضي الله عنهم؛ فاننّا علي يقين انّهم كانوا يجزمون بكلّ مايحدّث به احدهم من حديث عن رسول الله(صلّى الله عليه و آله و سلّم) ، و لم يقل احد منهم لمن حدّثه عن رسول الله(صلّى الله عليه و آله و سلّم) : خبرك خبر واحد لايفيد العلم.

**“Səhabələr bu sözü nəinki deməmişlər, hətta bu söz onların tutduqları yola müxalifdir də. Çünki biz qəti şəkildə bilirik ki, onlar arasında hər hansısa bir kəs Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) bir hədis nəql etdiyi zaman onlar mütləq şəkildə həmin hədisi qəbul edirdilər. Onlardan kimsə həmin hədis nəql edən şəxsə: “Sənin xəbərin xəbəri-vahiddir, elm (yəqin) hasil etmir”, - demirdi...”** [102]

**Cavab:**

1. Bu məsələ etiqadi olmayan məsələlərdə və ravinin siqə olması şərtilə düzgün ifadədir. Lakin onların etiqadi məsələlərdə də belə etdikləri məlum deyil.

2. Bu söz Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql olunmuş hədislə uyğun gəlmir. Çünki Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) belə buyurduğu nəql olunub:

كثرت علي الكذابة...

**“Mənə qarşı yalan uyduranlar çoxalıb...”**[103]

**Dördüncü dəlil:** O, yenə deyir:

قال الله تعالي: «يا أَيُّهَا الرَّسُولُ بَلِّغْ ما أُنْزِلَ إِلَيْکَ مِنْ رَبِّکَ وَإِنْ لَمْ تَفْعَلْ فَما بَلَّغْتَ رِسالَتَهُ» و قال: «وَ ما عَلَي الرَّسُولِ إِلاَّ الْبَلاغُ الْمُبِينُ» و قال النبي(صلّى الله عليه و آله و سلّم): بلّغوا عنّي، متفق عليه...

و معلوم انّ البلاغ هو الذي تقوم به الحجة علي المبلّغ و يحصل به العلم، فلوكان خبر الواحد لايحصل به العلم لم يقع به التبليغ...

“**Allah-taala buyurub:**

---

[101] Əlbani, “Vucubul-əxz bihədisil-ahad fil-əqidə”, s.8

[102] Əlbani, “Vucubul-əxz bihədisil-ahad fil-əqidə”, s.12.

[103] Həmin mənbə.

***"Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan."*[104]**

**Yenə də buyurub:**

***"Peyğəmbərin vəzifəsi yalnız aşkar (tapşırığı) çatdırmaqdır."*[105]**

**Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurub: "Mənim adımdan çatdırın!" Bu hədis barədə hər kəs icma etmişdir...**

**Məlumdur ki, höccət məhz "çatdırmaq"la tamam olur, elm məhz "çatdırmaqla"hasil olur. Əgər xəbəri-vahid elm hasil etmirdisə, onda onun vasitəsilə təbliğ işi baş verə bilməzdi..."[106]**

**Cavab:**

1. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) əqli və nəqli dəlillərə əsasən məsumdur və hər cür xətadan, səhvdən amandadır. Buna görə də buyurduğu hər kəlam insanda elm və yəqinlik hasil edir. Sizin dediyiniz bu söz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vasitəsilə nəql olunan rəvayətlərlə müxalifdir.

2. "Mənim adımdan çatdırın!" hədisi etiqadi hədislərə aid olması birinci məsələdir. Çünki bu məsələlərdə digər dəlillərə də əsasən yəqinlik şərtdir.

3. Bunun etiqadi məsələlərə də aid olmasını fərz etsək belə, dəlilləri bir yerə toplamaqla bu nəticəyə gəlirik ki, bu cür rəvayətləri ələ keçirən şəxslərin hədis nəql etməkdə və ya başa düşməkdə yalan danışmaları və ya səhv etmələri ehtimalı daha yüksəkdir. Buna görə də belə rəvayətlər qəti əqli dəlillər və Quranla müqayisə olunmalıdır. Sonra bu hədislərin mənasına etiqad bəslənməlidir.

**Beşinci dəlil:** O, yenə də deyir:

انّنا نعلم يقيناً انّ النبي(صلّى الله عليه و آله و سلّم) كان يبعث افراداً من الصحابة الي مختلف البلاد ليعلّموا الناس دينهم، كما أرسل علياً و معاذاً و ابا موسي إلي اليمن في نوبات مختلفة، و نعلم يقيناً أيضاً انّ اهمّ شيء في الدين انّما هو العقيدة...

**"Biz qəti şəkildə bilirik ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrdən bəzilərini insanlara dinlərini öyrətsinlər deyə müxtəlif məntəqələrə göndərirdi. Necə ki, Əlini, Məazı, və Əbu Musanı müxtəlif vaxtlarda Yəmənə göndərmişdi. Bunu da qəti şəkildə bilirik ki, dində ən mühüm şey əqidədir...[107]**

**Cavab:**

---

[104] Maidə surəsi, 67-ci ayə
[105] Nur surəsi, 54-cü ayə.
[106] Əlbani, "Vucubul-əxz bihədisil-ahad fil-əqidə", s.13.
[107] Əlbani, "Vucubul-əxz bihədisil-ahad fil-əqidə", s.14-15.

Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bir sıra şəxsləri müxtəlif məntəqələrə ona görə göndərmişdir ki, onları düzgün əqidələrə ağıl vasitəsilə təfəkkür etməklə dəvət etsinlər. Buna görə də Allahı tanımaqla bağlı bəzi ayələrdə düzgün əqidə və ondan istifadə olunması bəyan olunandan sonra sonda düşünmək və təfəkkür etməyə əmr olunur. Bu ayələr əqidənin yalnız ağıl vasitəsilə dərk olunmasına işarə edir. Allah-taala buyurur:

إِنَّ فِي خَلْقِ السَّماواتِ وَالأَرْضِ وَاخْتِلافِ اللَّيْلِ وَالنَّهارِ لآياتٍ لِأُولِي الأَلْبابِ

**“Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün get-gəlində sağlam ağıl və fikir sahibləri üçün (Allahın qüdrət, elm və hikmətini göstərən) nişanələr vardır.”[108]**

Yenə buyurur:

كَذلِكَ يُحْيِ اللهُ الْمَوْتي وَيُرِيكُمْ آياتِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ

**“Allah ölüləri bu cür dirildir və Öz (tovhid və qüdrət) nişanələrini sizə göstərir ki, bəlkə düşünəsiniz.”[109]**

Yenə də buyurur:

كَذلِكَ يُبَيِّنُ اللهُ لَكُمْ آياتِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ

**“Allah Öz ayələrini (dinin hökmlərini) sizə bu cür aydınlaşdırır ki, bəlkə düşünəsiniz.”[110]**

Yenə buyurur:

أُفٍّ لَكُمْ وَلِما تَعْبُدُونَ مِنْ دُونِ اللهِ أَ فَلا تَعْقِلُونَ

**“Vay olsun həm sizə, həm də Allahın yerinə ibadət etdiklərinizə! Heç düşünmürsünüz?!”[111]**

Yenə də buyurur:

وَهُوَ الَّذِي يُحْيِي وَيُمِيتُ وَلَهُ اخْتِلَافُ اللَّيْلِ وَالنَّهَارِ أَفَلَا تَعْقِلُون

**“Dirildən və öldürən Odur və gecə ilə gündüzün get-gəli Ona məxsusdur (və Onun əlindədir). Belə isə heç düşünmürsünüz?!”[112]**

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ وَالْفُلْكِ الَّتِي تَجْرِي فِي الْبَحْرِ بِمَا يَنفَعُ النَّاسَ وَمَا أَنزَلَ اللّهُ مِنَ السَّمَاء مِن مَّاء فَأَحْيَا بِهِ الأرْضَ بَعْدَ مَوْتِهَا وَبَثَّ فِيهَا مِن كُلِّ دَآبَّةٍ وَتَصْرِيفِ الرِّيَاحِ وَالسَّحَابِ الْمُسَخِّرِ بَيْنَ السَّمَاء وَالأَرْضِ لآيَاتٍ لِّقَوْمٍ يَعْقِلُونَ

**“Şübhəsiz, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, insanların xeyrinə olaraq dənizdə hərəkət edən gəmilərdə, Allahın səmadan nazil etdiyi və vasitəsilə yeri ölümündən sonra diriltdiyi və müxtəlif**

---

[108] Ali-İmran surəsi, 190-cı ayə.
[109] Bəqərə surəsi, 73-cü ayə.
[110] Bəqərə surəsi, 242-ci ayə.
[111] Ənbiya surəsi, 67-ci ayə.
[112] Muminun surəsi, 80-ci ayə.

**növdən olan canlıları onun (yerin) hər tərəfinə yaydığı suda, küləklərin (bir tərəfdən başqa bir tərəfə) əsdirilməsində və göylə yer arasında təslim halda olan buludda (bu yeddi şeyin hər birində) düşünən qövm üçün (Allahın tovhid, qüdrət və hikməti barəsində) nişanələr vardır.”**[113]

Yenə buyurur:

صُمٌّ بُكْمٌ عُمْيٌ فَهُمْ لا يَعْقِلُونَ

**“(Onlar) kar, lal və kordurlar, buna görə də düşünmürlər.”**[114]

Yenə də Allah buyurur:

وَإِذَا نَادَيْتُمْ إِلَى الصَّلاَةِ اتَّخَذُوهَا هُزُوًا وَلَعِبًا ذَلِكَ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَعْقِلُونَ

**“(İnsanları azan vasitəsilə) namaza çağırdığınız zaman onlar onu lağa qoyar və ələ salarlar. Bu ona görədir ki, onlar düşünməyən bir tayfadırlar.”** [115]

Yenə buyurur:

إِنَّ شَرَّ الدَّوَابِّ عِنْدَ اللهِ الصُّمُّ الْبُكْمُ الَّذِينَ لا يَعْقِلُونَ

**“Həqiqətən, Allah yanında, tərpənən canlıların ən pisi düşünməyən (haqqı eşitməkdə) kar və (haqqı deməkdə) lal (olan) insanlardır.”**[116]

Allah yenə buyurur:

أَفَلَمْ يَسِيرُوا فِي الْأَرْضِ فَتَكُونَ لَهُمْ قُلُوبٌ يَعْقِلُونَ بِهَا أَوْ آذَانٌ يَسْمَعُونَ بِهَا فَإِنَّهَا لَا تَعْمَى الْأَبْصَارُ وَلَكِن تَعْمَى الْقُلُوبُ الَّتِي فِي الصُّدُورِ

**“Məgər onlar yer (üzün)də gəzib dolaşmayıblar ki, düşünən qəlbləri və ya eşidən qulaqları olsun?! Çünki əslində zahiri gözlər kor olmur, lakin sinələrdəki ürəklər kor olur.”**[117]

**Əqidə məsələlərində zəif rəvayətlərə etimad etmək caiz deyildir**

Əhli hədis, hənbəlilər və vəhhabilər əqidə bölümündə Quran ayələrinə və hədislərə etimad edirlər. Hədisin qəbul edilməsində sənəd baxımından daha da genişləndirərək, hər xəbəri vahidə etimad edirlər. Halbuki əqidə bölümündə zəif hədislərə etimad etmək düzgün deyildir.

İbn əs-Səlah “Ulumul-hədis” kitabının müqəddiməsində yazır:

يجوز عند اهل الحديث و غيرهم التساهل في الأسانيد و رواية ما سوي الموضوع من انواع الأحاديث الضعيفة من غير اهتمام بيان ضعفها فيما سوي صفات الله تعالي، و احكام الشريعة من الحلال و الحرام و غيرهما، و ذلک کالمواعظ و القصص و فضائل الاعمال، و سائر فنون الترغيب و الترهيب، و سائر

113 Bəqərə surəsi, 164-cü ayə.
114 Bəqərə surəsi, 171-ci ayə.
115 Maidə surəsi, 58-ci ayə.
116 Ənfal surəsi, 22-ci ayə.
117 Həccc surəsi, 46-cı ayə.

ما لاتعلق له بالأحكام و العقائد. و ممّن روينا عنه التنصيص علي التساهل في نحو ذلک عبدالرحمن بن مهدي و احمد بن حنبل رضي الله عنهما

**“Əhli hədis və qeyrilərinin nəzərində sənədlərdə dərinə getməmək (yüngül davranmaq), həmçinin, uydurma hədislər istisna olmaqla digər növ zəif rəvayətləri – əgər Allah-taalanın sifətləri barədə, eləcə də halal, haram və s. kimi şəriət hökmləri barədə deyillərsə – zəif olduqlarını bildirmədən nəql etmək caizdir. Bu zəif sənədli rəvayətlər moizələr, əhvalatlar, əməllərin fəzilətləri, rəğbətləndirən və qorxudan kəlamlar və s. bu kimi əqidə və şəri hökmlərlə əlaqəsi olmayan məsələlər qismindən ola bilərlər. Bu cür zəif hədislərin sənədlərində yüngüllük göstərməyin caiz olmasını açıq-aşkar bildirən alimlərə misal olaraq Əbdürrəhman ibn Məhdi və Əhməd ibn Hənbəli göstərmək olar.[118]**

Nəvəvi deyir:

و يجوز عند اهل العلم و غيرهم التساهل في الأسانيد و رواية ما سوي الموضوع من الضعيف و العمل به من غير بيان ضعفه في غير صفات الله تعالي و الأحكام كالحلال و الحرام؛ و ما لايتعلق بالعقائد و الأحكام

**“Elm əhlinin və digərlərinin nəzərində sənədlərdə çox da dərinə getməmək, saxta (uydurma) hədislər istisna olmaqla digər növ zəif hədisləri onların zəif olduqlarını açıqlamadan rəvayət etmək və onlara əməl etmək caizdir. Lakin bu hədislər Allah-taalanın sifətləri, halal və haram hökmləri və ümumilikdə əqidə və şəri hökmlər barədə olmamalıdır.”[119]**

[118] “Muqəddimətu-İbn Salah”, s.49.
[119] Nəvəvi, “Tədribur-ravi”, c.1, s.298.